QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 239 (5711) **18 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

*İlham Əliyev: "Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir"*



Səh 2

Azərbaycan-Rusiya münasibətləri strateji inkişaf yolunda



5

Oqtay Əsədov: Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır



6

"Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib



8

ISESCO-nun baş direktorunun müavini: Naxçıvan təkcə İslam aləminin deyil, bütün dünyanın ən işıqlı şəhəridir



9

Bakı - qlobal hərbi-siyasi problemlərin həlli mərkəzi



9

Nikol Paşinyanın susdurulması Azərbaycanın qələbəsidir



10

11

"Azərbaycan Rusiya ilə daha dərin strateji münasibətlər qurmağa hazırdır"



6

"Hərbçilərimizin sosial rifah halının yaxşılaşdırılması Prezidentin diqqətindədir"



16

Avropanın ən yaxşı gənc futbolçusu müəyyənləşdi



# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

*İlham Əliyev: "Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir"*



"Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir"

***Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident İlham Əliyevə raport verdilər.***

Burada ümumilikdə səkkiz bina tikilib. Binaların həyətində uşaq əyləncə meydançası, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət guşələri yaradılıb. Dövlətimizin başçısı mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə mənzillərdə yaradılan şərait barədə məlumat verdi.





Bildirildi ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci ildə imzaladığı Fərmana əsasən, bu binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub.

Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb.

***Ardı Səh. 3***

## Rəsmi xronika

Prezident İlham Əliyev Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri Təmim bin Həməd Al Taniyə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına sülh və rifah diləyirəm".

***

Dövlət başçısı eyni zamanda Qətər Dövləti Əmirinin müavini Abdullah bin Həməd Al Taniyə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm. Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

***

Prezident İlham Əliyev İlham İsmayılovun Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, İlham Mehdixan oğlu İsmayılov Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev elektrik enerjisi istehsalının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

## *İlham Əliyev: "Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir"*





"Bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir"





**Əvvəli Səh. 2**

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin Fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.



Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Xüsusi ilə son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılıb:

- Əziz hərbçilər, əziz dostlar.

Bu gün hərbçilərin həyatında çox əlamətdar bir gündür. Bu gözəl binada 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gözəl binada rahat yaşayasınız.

Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışlarında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirli mənzillərdir. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir.

***Ardı Səh. 4***

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
18 dekabr 2018-ci il

# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

*İlham Əliyev: "Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir"*



"Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir"





Əvvəli Səh. 3

Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır.

Onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir.

Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Siz onu da bilirsiniz ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm Aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.

Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir.

Ordu quruculuğu prosesində əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Bax, bu gözəl binada 400-ə yaxın hərbçi ailəsinin yaşaması dediyim sözlərin bariz nümunəsidir, təsdiqidir. Mən bu gözəl binada yaşayacaq bütün hərbçiləri bu hadisə münasibətilə bir daha təbrik edirəm. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

x x x

Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim etdi.

Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rafiq QULİYEV öz adından və hərbçi yoldaşları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində biz hərbçilərə bəxş etdiyiniz bu sevincə görə bütün hərbçilər və onların ailə üzvləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Əmin ola bilərsiniz ki, bundan sonra da hərbi anda sadiqik və Sizin bütün əmrlərinizi yerinə yetirməyə hazırıq.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev hərbi qulluqçuların ailə üzvləri ilə söhbət etdi.

# Azərbaycan-Rusiya münasibətləri strateji inkişaf yolunda

## *İnkişaf növbəti uğurlu mərhələlərə stimul verir*



***Azərbaycanla Rusiya arasında münasibətlər və əlaqələr uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Azərbaycan və rus xalqını təkcə sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial bağlar bir-birinə bağlayır. Sovet İttifaqının süqutundan sonra müstəqillik əldə edən Azərbaycan və Rusiya arasında, ilk illərdə, bəzi obyektiv və subyektiv səbəblərdən müəyyən gərginliklər yaşandı. Ancaq 1993-cü ilin iyun hadisələrindən, müasir Azərbaycan dövlətinin qurucusu və banisi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra, bir çox sahələrdə olduğu kimi, Azərbaycanla Rusiya arasındakı münasibətlərdə də geriləmələr və gərginliklər tədricən aradan qalxmağa başladı.***

Ümummilli Lider Heydər Əliyevin Rusiya ilə bağlı daimi xoşməramlı mövqeyi də öz qarşılığını görməyə başladı. 2003-cü ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyətə gəlməsi və Ulu Öndər Heydər Əliyev siyasətini uğurlu şəkildə davam etdirməsi ilə Azərbaycan-Rusiya münasibətlərində inkişafın yeni mərhələsi başlandı.

### Azərbaycan-Rusiya münasibətlərində inkişafın yeni mərhələsi

Dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi və işgüzar səfərlər edib, eyni zamanda, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana yüksək səviyyəli səfərləri bu səfərlərin qarşılıqlı etimada, etibara və səmimiyyətə əsaslanan münasibətlərin nəticəsi olaraq, ölkəmiz ilk dəfə 2016-cı ilin avqustunda Bakı şəhərində Azərbaycan, Rusiya və İran prezidentlərinin - "Üçlər" formatının Zirvə toplantısına ev sahibliyi etdi. Bu gün artıq Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin arasında münasibətlər yüksək inkişaf səviyyəsindədir. Statistikaya, faktlara və rəqəmlərə müraciət etsək, görərik ki, Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Həmçinin, Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri- "Qazprom"u, "Transneft"i və "LUKOYL"u uğurpla işləyir. Eyni zamanda, Rusiyanın "R-Farm" şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. "Qazprombank" Sumqayıt Kimya-Sənaye Parkının inkişafında iştirak edir. Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək beynəlxalq "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin yaradılması da ən perspektivli layihələrdən biri hesab oluna bilər.

Onu da vurğulamaq lazımdır ki, Rusiya 30 ildən artıq davam edən və hələ də ədalətli həllini tapa bilməyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə tənzimlənməsi prosesində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biridir. Azərbaycan cəmiyyətində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində gözləntilər digər həmsədr dövlətlərdən bəlkə də ən çox qonşu və dost Rusiyadandır. Azərbaycan vətəndaşları bu münaqişənin sülh yolu ilə ədalətli həllinə Rusiyanın töhfələr verəcəyinə daha çox ümidlidirlər. Heç təsadüfi deyil ki, Azərbaycan Prezidenti Soçi görüşündə səsləndirdiyi bəyanatında da, bu məqama xüsusi yer ayırmışdı: "Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək".

### "Azərbaycan 2019-cu ilin Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesinə yeni impuls verəcəyinə ümid edir"

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla görüşü zamanı ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, Rusiyanın səylərinə ümid bəslədiyini dilə gətirib: "Biz bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə edəcəyik. Ümid edirik ki, 2019-cu il nizamlanma prosesinə yeni impuls verəcək. Əlbəttə ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Rusiyanın səylərinə ümid edirik. Biz bir çox sahələrdə qarşılıqlı fəaliyyət göstəririk. Mən, həmçinin Şimal-Cənub Dəhlizinin yaradılması ilə bağlı bizim fəaliyyətimizin nəticələrini məmnunluqla qeyd etmək istərdim. Biz bu istiqamətdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Müvafiq strukturlar və nəqliyyat qurumları çox məhsuldar işləyirlər. Biz bu il, artıq yaxşı nəticələri görürük. Biz digər tərəfdaşlarımızla və qonşularımızla bu layihəni mümkün qədər tez başa çatdırmaq üçün birgə səylərimizi davam etdirəcəyik".

### "Vladimir Putin İlham Əliyevin strateji tərəfdaşlığımızı irəli aparmağını yüksək qiymətləndirir"

Belə ki, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov da Prezident İlham Əliyevlə görüşü zamanı bildirib ki, Vladimir Putin Prezident İlham Əliyevin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətini yüksək qiymətləndirir: "Vladimir Vladimiroviç Putinin Sizin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətinizi yüksək qiymətləndirir. Artıq hesabladığımız kimi, sizin bu il altı dəfə keçirilən görüşləriniz, son görüşləriniz, o cümlədən, qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar yerinə yetirilir. Hökumətlərarası Komissiyanın sabahkı iclası da, yəqin ki, sizin razılaşdırdığınız istiqamətlər - ticarətin asanlaşdırılması, büdcə-vergi sahəsinin rəqəmsallaşdırılması, nəqliyyat sahəsində əməkdaşlıq, birgə müəssisələrin yaradılması, Siz qeyd etdiyiniz kimi, humanitar əlaqələr, ən müxtəlif sahələr, o cümlədən, bizim əməkdaşlığımızın vacib sahəsi olan Rusiya və Azərbaycanın regionları arasındakı qarşılıqlı fəaliyyətə təkan verəcək. Biz Azərbaycanla beynəlxalq arenada, BMT-də və Avropa Şurasında qarşılıqlı fəaliyyəti qiymətləndiririk. İndi Avropa Şurasının strukturlarında bütün üzv ölkələrin bərabər hüquqlarının təmin olunduğu bu təşkilatın Nizamnaməsinin əsas qaydalarına yenidən baxılması cəhdləri var. Biz ATƏT-də də birlikdə işləyirik".

Bir sözlə, bütün bu reallıqlar, onu deməyə əsas verir ki, bu gün Azərbaycan-Rusiya əlaqələri strateji tərəfdaşlıq müstəvisində, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında hərtərəfli şəkildə uğurla inkişaf etməkdədir.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 dekabr 2018-ci il

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş keçirilib

Dekabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Ərzurum Vilayətinin valisi Okay Memiş və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu bildirərək deyib ki, Azərbaycanın inkişafı Türkiyənin inkişafı, Türkiyənin inkişafı isə Azərbaycanın inkişafıdır. Naxçıvan Muxtar Respublikası ilə Ərzurum vilayəti arasındakı münasibətlərin tarixinə diqqəti çəkən Ali Məclisin Sədri qarşılıqlı əlaqələrin inkişafının hər iki tərəf üçün faydalı olduğunu qeyd edib. Ali Məclisin Sədri muxtar respublika ilə Türkiyənin yaxın vilayətləri arasındakı təhsil əlaqələrindən danışıb, Naxçıvan Dövlət Universitetinin Türkiyənin universitetləri ilə əməkdaşlıq etdiyini vurğulayıb.

Ali Məclisin Sədri Ərzurum Vilayətinin nümayəndə heyətinin Naxçıvana səfərinin səmərəli olacağına əminliyini bildirib.

Ərzurum Vilayətinin valisi Okay Memiş göstərilən diqqətə görə minnətdarlıq edib, Naxçıvan Muxtar Respublikasına ilk dəfə səfər etdiyini və burada şahidi olduğu inkişafın onda böyük təəssürat yaratdığını bildirib. Ərzurum Vilayəti haqqında ətraflı məlumat verən vali Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin genişləndirilməsində səylərin artırılacağını vurğulayıb.

Sonra xatirə şəkli çəkdirilib. Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak edib.

# Mahmud Ələvi: İran və Azərbaycan arasında münasibətlər qarşılıqlı etimada əsaslanır



İran və Azərbaycan arasında bütün sahələr üzrə intensiv əlaqələr mövcuddur. AZƏRTAC xəbər verir ki, bu fikri İranın informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvi Azərbaycana etdiyi səfərin yekunları haqqında danışarkən söyləyib.

Nazir bildirib ki, hər iki ölkənin təhlükəsizlik xidmətləri beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qaçaqmalçılığı ilə mübarizədə informasiya mübadiləsi aparır. Qonşu və dost olan Azərbaycan ilə təhlükəsizlik məsələləri daim diqqətdə saxlanılır.

Azərbaycanda keçirdiyi görüşlərin uğurlu olduğunu bildirən S.M.Ələvi qeyd edib ki, hər iki xalqın tarixi, dini və mədəni ortaqlığının mövcudluğu təhlükəsizlik məsələlərinə diqqətlə yanaşmağı tələb edir: "İran ilə Azərbaycanın yaxşı münasibətləri bəzi dairələr tərəfindən yaxşı qarşılanmır. Münasibətlərin pozulmasını istəyən və bundan öz mənafeləri üçün yararlanmağa çalışanlar da var. Lakin hər iki dövlətin münasibətləri qarşılıqlı etimada əsaslanır".

# "Hərbçilərimizin sosial rifah halının yaxşılaşdırılması Prezidentin diqqətindədir"



"Azərbaycan prezidenti İlham Əliyev hər zaman ordumuzda xidmət edən hərbçilərə böyük diqqət və qayğı göstərir. Azərbaycan zabitlərimizin mənzil şəraitinin, sosial rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərə görə öncül ölkələrdən sayılır. Azərbaycan Prezidentinin bu gün Sabunçu rayonunda hərbçilərə yeni mənzillər verilməsi mərasimindəki iştirakı buna bariz nümunədir". Bu fikirləri SİA-ya açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib. Artıq ölkəmizdə qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilməsi prosesinin geniş vüsət aldığını deyən ehtiyatda olan polkovnik söyləyib ki, görülən işlər nəticəsində hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb: "Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. "Azərbaycan Prezidenti həm də hərbçilər üçün idman şəhərciklərinin salınması, təlim mərkəzlərinin yaradılması məsələsinə də böyük diqqət ayırır".

C.Xəlilov söyləyib ki, Azərbaycanda həm müdafiə, həm də dövlət sərhədi, həm də daxili qoşunları xidmətində çalışan hərbi qulluqçulara onların fəaliyyəti üçün yüksək səviyyədə şərait qurulub: "Buna misal olaraq son illərdə bir çox hərbi şəhərciklərimizdə aparılan əsaslı təmir-bərpa işlərini söyləmək olar. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir". Ölkəmizdə ordu quruculuğu sahəsində mühüm işlərin görüldüyün dilə gətirən sabiq polkovnik vurğulayıb ki, bu gün ordumuzun güclü hərbi texnika ilə təchiz olunması nəticəsində Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasına daxil olub: "Ölkəmizdə vətənpərvərlik ruhu yüksəkdir, bu kimi addımlar isə bu ruhunun daha da yüksəlməsi üçün əhəmiyyətlidir".

*Nailə Məhərrəmova*

# Oqtay Əsədov: Azərbaycan və Gürcüstan strateji tərəfdaşlardır



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov gürcü xalqını yeni Prezidentin seçilməsi münasibətilə təbrik edib. Milli Məclisin sədri deyib ki, Gürcüstan Azərbaycana qardaş ölkədir. Gürcüstanın bayramı Azərbaycanın bayramıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumatda bildirilir ki, Prezident Salome Zurabişvilinin inauqurasiya mərasimində iştirak edən Milli Məclisin sədri Oqtay Əsədov Gürcüstan xalqını yeni Prezidentin seçilməsi münasibətilə təbrik edib, xoşbəxtlik və firavanlıq arzulayıb. Azərbaycan parlamentinin sədri deyib ki, Gürcüstan və Azərbaycan strateji tərəfdaşlardır. Ölkələrimiz arasında sıx münasibətlər var. Gürcüstanın yeni dövlət başçısının andiçmə mərasimində iştirak etmək bizim üçün vacibdir. Biz Gürcüstanla həmrəyliyimizi ifadə edirik. Burada olmağımızdan məmnunuq.

Xatırladaq ki, Salome Zurabişvilinin andiçmə mərasimində Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə xarici işlər nazirinin müavini Ramiz Həsənov, deputatlar Əflatun Amaşov və Hikmət Babaoğlu daxil olub.

# "Channel 5" televiziya kanalında Azərbaycan-Pakistan əlaqələrindən bəhs olunub



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin "Channel 5" televiziya kanalının "Diplomatic Enclave" proqramının qonağı olub. AZƏRTAC xəbər verir ki, səfir Azərbaycan-Pakistan əlaqələri haqqında aparıcının suallarına ətraflı cavab verib. Diplomat Azərbaycanın Pakistanla iqtisadi-ticari sahədə də əməkdaşlığın artırılmasında maraqlı olduğunu, cari ildə iki ölkə arasında bir çox birgə layihələrin, sərgilərin keçirildiyi, ticarət dövriyyəsində artımın müşahidə olunduğunu və bu sahədə potensial və imkanların daha dərindən araşdırılmasının vacibliyini vurğulayıb. Səfir Azərbaycandan Pakistana ixrac ediləcək məhsullar barədə məlumat verib, ölkəmizdə 300-ə yaxın Pakistan şirkəti və iş adamının fəaliyyət göstərdiyini, Pakistandan ölkəmizə gələn turistlərin sayında dəfələrlə artımın olduğunu, hazırda iki ölkə arasında birbaşa hava əlaqəsinin qurulması üzərində işlərin getdiyini söyləyib.

Ə.Əlizadə, həmçinin Azərbaycanda xarici investorlar üçün yaradılan münbit şərait, kənd təsərrüfatı, sənaye və texnoloji parkların, iqtisadi zonaların fəaliyyətləri haqqında məlumat verib, ölkəmizdən keçən beynəlxalq nəqliyyat dəhlizləri, bu dəhlizlərə Pakistanın da qoşulmasının mümkünlüyü, Azərbaycanla Pakistan arasında olan strateji tərəfdaşlıq münasibətlərinin iqtisadi, ticari, hərbi-texniki, enerji, turizm və digər sahələrdə də əməkdaşlığa öz töhfəsini verdiyini, qarşılıqlı investisiya üçün imkanların artdığını qeyd edib.

Aparıcının Azərbaycanla Pakistan arasında hərbi sahədə əməkdaşlıqla bağlı sualına cavab olaraq, Əli Əlizadə bu sahənin ikitərəfli münasibətlərdə prioritet sahə olduğunu, hər iki ölkənin terrorçuluqdan, ekstremizmdən əziyyət çəkdiyini və bir-birinə daim dəstək göstərdiyini, Ermənistanın Azərbaycan ərazilərini işğal edərək burada etnik təmizləmə, dini, mədəni abidələri məhvetmə siyasəti həyata keçirdiyini, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə məhəl qoymadığını diqqətə çatdırıb.

Səfir təhlükəsizlik sahəsində Pakistanda irəliləyişin müşahidə edildiyini, yeni hökumətin ölkədə iqtisadi, sosial, humanitar sahələrdə layihələr həyata keçirdiyini, bütün bunların ölkənin inkişafına öz töhfəsini verəcəyinə inandığını bildirib, Azərbaycanın daim qardaş Pakistanın yanında olduğunu vurğulayıb.

# "Bu gün ölkəmizdə şəhid ailələrinə böyük qayğı ilə yanaşılır"



"Prezident İlham Əliyevin Sabunçu rayonunda hərbçilərə yeni mənzillər verməsinin və şəhid ailələrinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı imzaladığı fərmanının çox böyük əhəmiyyəti var". Bunu SİA-ya açıqlamasında "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənli deyib.

Hərbi ekspertin sözlərinə görə, dövlət başçısının bu kateqoriyadan olan insanlara maddi dəstək xarakterli qərar verməsi vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasına hesablanmış uğurlu siyasət kursunun davam etdiyini göstərir: "Prezident əlamətdar hadisələri, ad günlərini həmişə şəhid ailələri, Qarabağ qaziləri ilə birgə keçirir. Xüsusi qayğıya ehtiyacı olan həmin vətəndaşlarımızın mənzil-məişət problemlərinin həlli, avtomobillərlə təmin olunması, təqaüd ayrılması, onların övladlarının təhsil haqqından azad edilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Həmçinin, ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhid olmuş şəxslərin adlarının əbədiləşdirilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilir. Təhsil müəssisələri, səhiyyə ocaqları və küçələrə qəhrəman şəhidlərimizin adları verilir, vaxtilə yaşadığı evlərə borelyefləri vurulur. Bu, dövlət səviyyəsində şəhidlərə, onların ailə üzvlərinə dərin hörmət və ehtiramın göstəricisi, diqqət və qayğının əyani təzahürüdür".

E.Həsənli qeyd edib ki, dövlət üçün nümunəvi xidmətlər göstərmiş şəxslərin əməyini dövlət başçısı həmişə yüksək qiymətləndirir. Ekspertin sözlərinə görə, bu kimi amillər Azərbaycanda gənc nəsildə vətənpərvərlik ruhunun daha da yüksəlməsinə zəmin yaradır, Silahlı Qüvvələrimizi dünyada ən qüdrətli ordular sırasında yer almasına imkan verir. E.Həsənli həmçinin vurğulayıb ki, Azərbaycan əhalinin həssas qrupuna göstərdiyi diqqət və qayğıya görə dünya ölkələrinə nümunə ola bilər: "Bu gün ölkəmizdə həm şəhid ailələrinə, həm müharibə əlillərinə, həm məcburi köçkün ailələrinə, eləcə də əhalinin digər həssas qrupuna böyük qayğı ilə yanaşılır. Bu məsələlər birbaşa ölkə Prezidentinin nəzarəti altındadır. Bütün bunlar onu göstərir ki, ölkəmizdə əhalinin həssas qrupuna ən yüksək səviyyədə diqqət göstərilir".

# Ölkəmiz bu il idman sahəsində böyük nailiyyətlər qazanıb

## *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin yap.org.az-a müsahibəsi*

***-Rauf müəllim, 2018-ci il başa çatmaq üzrədir. Bu il idman sahəsində əldə edilən nailiyyətləri necə dəyərləndirirsiniz?***

-Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük uğurlar qazanılır. Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da vacib məqam kimi vurğulanmalıdır.

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Tədbirdə bu il idman sahəsində qazanılan uğurlar vurğulanıb, eləcə də, yarışlarda yüksək nəticələr göstərmiş idmançılara, idman ustalarına mükafatlar təqdim olunub. Mərasimdə çıxış edən Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev bildirib ki, ölkəmizdə gözəl gənc nəsil yetişir. Dövlətimizin başçısı qeyd edib: "Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək".

Uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmayıb, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir.

Təqdirəlayiq haldır ki, ölkəmizdə idmanın inkişafına olan qayğı tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Aidiyyəti dövlət orqanları bu cür idman növləri ilə məşğul olan idmançılarımızın beynəlxalq yarışlarda iştirakını daim maliyyələşdirir, onları gələcək qələbələrə ruhlandırmaq üçün müxtəlif stimullaşdırıcı tədbirlər görürlər. Bunun nəticəsidir ki, Azərbaycan idmançıları ağırlıqqaldırmanın yalnız peşəkarların məşğul olduğu pauerliftinq növü, peşəkar boks, kikboksinq, qaydasız döyüş və digər idman növlərində ən yüksək nailiyyətlərə imza atırlar.



***-Sizcə, idman sahəsində qazanılan uğurların əsasında hansı amillər dayanır?***

-Qeyd etmək lazımdır ki, idman insanları fiziki cəhətdən sağlam, mənəvi cəhətdən güclü edir. Gənc və müstəqil Azərbaycanda bu gün idman cəmiyyətin ayrılmaz hissəsinə çevrilib. Fəxrlə qeyd etmək lazımdır ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb, beynəlxalq idman ailəsində layiqli yerini tutub. Sözsüz ki, bu uğurların təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursla bağlıdır. 1993-cü ildə Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan inkişaf dövrünə qədəm qoyub. Ümummilli lider ölkəmizdə sağlam gənc nəslin yetişməsində və uğurlarımızın təbliğində idmanın rolunu həmişə yüksək qiymətləndirib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Eləcə də, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu sahənin inkişafına xüsusi diqqət göstərir. Azərbaycanda idmanın inkişafı dövlətdə siyasətinin əsasını təşkil edir. İnsanların fiziki və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayan bədən tərbiyəsi və idman dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunub.

Bu qayğı idmanın inkişafına böyük təkan verməklə yanaşı, minlərlə yeniyetmə və gəncin sağlam ruhda tərbiyə olunmasına şərait yaradır. Fərəhli haldır ki, respublikamızda idman bölmələrinə axın kütləvi xarakter alıb. Respublikamızın əksər regionlarında müasir standartlara cavab verən, hər cür şəraiti olan Olimpiya idman kompleksləri, stadionlar, zallar tikilərək idmançıların istifadəsinə verilib. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması ilə bu kütləvilik daha da geniş vüsət alıb. Azərbaycanda idmana olan münasibət başqa ölkələrə nümunə kimi göstərilir. Ölkəmizin nüfuzlu idman yarışlarına və tədbirlərinə ev sahibliyi etməsi, təmsilçilərimizin mötəbər yarışlarda medallar qazanması respublikamızı dünyada inkişaf etmiş idman ölkəsi kimi tanıdıb.

***-İdman sahəsinin inkişafı, həm də bütövlükdə ölkəmizin dinamik inkişafının mühüm tərkib hissəsidir...***

- Təbii ki, idman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi təbliğati-siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdman ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcək.

İdmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir. Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Təbii ki, idmana dövlət başçısı cənab İlham Əliyevin diqqəti idmançıları yeni qələbələrə səsləyir. Dekabrın 13-də keçirilən mərasimdə Prezident İlham Əliyev qeyd edib: "İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq".

***-Rauf müəllim, sizcə, yaradılan infrastruktur, şəraitlə yanaşı, ölkəmizdə idmanın kütləviliyinin təminatında bu sahənin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarının, qanunvericiliyin rolu hansı səviyyədədir?***

- Ümumiyyətlə, bir faktı mütləq şəkildə qeyd etmək lazımdır ki, Azərbaycan dünyada elə ölkələrdəndir ki, bütün sahələrdə əldə olunan nailiyyətlər konsepsiyaya əsaslanır. O cümlədən də, idman sahəsindəki qələbələr, nəticələr də məhz konsepsiyaların, uzun dövr üçün hazırlanan proqramların nəticəsində əldə olunub. Prezidentimizin də qeyd etdiyi kimi, idmanın inkişafı dövlət siyasətidir və bu inkişafı müəyyən edən bütün amillər Azərbaycanda var. Prezident İlham Əliyevin şəxsi səyi sayəsində bölgələrdə gənclərin sağlam şəkildə yetişdirilməsi, ölkəmizin genefondunun-gənclərimizin sağlam ruhda böyüməsi üçün əsaslı addımlar atılır. Digər tərəfdən, hər bir istiqamət kimi idmanın inkişafı da ölkə qanunları çərçivəsində tənzimlənir. Bu gün ölkəmizdə idman təkcə yeniyetmə və gənclər arasında deyil, həm də yaşlılar, əlillər, məktəbəqədər, ibtidai məktəb səviyyəsində də inkişaf etdirilir. "Bədən tərbiyəsi və idman haqqında" Qanun ölkəmizdə idmanın həm yüksək səviyyədə inkişafını, həm də bu inkişafın sistematikliyini təmin edir. Qanunda da göstərilir ki, bu istiqamətdə dövlət siyasətinin məqsədi bədən tərbiyəsi və idmanın hüquqi bazasını, bədən tərbiyəsi və idmanın inkişafının təmin etdirilməsini, yüksək dərəcəli idmançıların hazırlanması üçün bədən tərbiyəsi-idman təşkilatlarını, uşaq idman müəssisələri sistemini yaratmaqdan ibarətdir. Yəni, bu sahədə nailiyyət əldə olunması üçün bütün imkanlar yaradılır. O cümlədən, bu gün bütün idman təşkilatları üçün bərabər imkanlar yaradılıb və bütün idman sahələri inkişaf etdirilir. Bu özü-özlüyündə həm də sistematikliyi, davamlılığı təmin edir.

Dekabrın 13-də keçirilən mərasimdə Prezident İlham Əliyev idman infrastrukturunun yaradılmasının əhəmiyyətini vurğulayaraq qeyd edib: "Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır".

Təbii ki, nəzərə alsaq ki, idmanla peşəkar səviyyədə məşğul olan insanların əksəriyyəti gənclərdir, idmana qayğı, idmanın kütləviliyi həm də gənclərin inkişaf etdirilməsi sahəsində görülən işdir. Bu baxımdan, ölkəmizdə gənclərin inkişafına həsr olunan dövlət proqramlarında, konsepsiyalarda idmanın inkişafı məsələsi də prioritet olaraq müəyyənləşdirilir. Gənclər arasında maarifləndirici təbliğatın aparılması, idmana cəlb olunması bu məsələdə əsas xətt sayılır. Əsas məqsəd gənclərin sağlamlığının qorunması və buna xidmət edən təşviqedici və maarifləndirmə tədbirlərinin keçirilməsidir. Unutmayaq ki, sağlam gənclik həm də sağlam gələcək deməkdir.

Bütövlükdə, ölkə rəhbərliyinin qayğısı ilə həyata keçirilən bu tədbirlər bir daha onu deməyə əsas verir ki, ölkəmizdə idmanın inkişafı gələcək illərdə də yüksək səviyyədə təmin olunacaq.

## Xəzər dənizində zəlzələ baş verib



Dekabrın 17-də Xəzər dənizində 4,7 bal gücündə zəlzələ baş verib. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, yeraltı təkanlar yerli vaxtla saat 14:03:39-da qeydə alınıb. Ocağı 44 kilometr dərinlikdə yerləşən zəlzələ yaxın yaşayış ərazilərində 3 bala qədər hiss olunub.

## Azərbaycan cari ildə 495 milyon dollarlıq meyvə-tərəvəz ixrac edib



Bu ilin yanvar-noyabr aylarında Azərbaycan 495 milyon 60 min ABŞ dolları dəyərində 549 min 369 ton meyvə-tərəvəz ixrac edib. AZƏRTAC Dövlət Gömrük Komitəsinin yaydığı hesabata istinadla xəbər verir ki, bu göstərici ötən ilin eyni dövrünə nisbətən müvafiq olaraq 42 milyon 332 min dollar və 56 min 586 ton çoxdur. On bir ayda meyvə-tərəvəzin ixracı Azərbaycanın ümumi ixracının 2,76 faizini təşkil edib.

## DSX: İrandan Azərbaycana narkotik vasitə keçirmək istəyən şəxslər saxlanılıb



Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində tədbirləri davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 12-də "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycana gələn İran vətəndaşı, 2002-ci il təvəllüdlü Bargikani Naza Muhammedbaxirin üzərində Xidmətin Sərhəd Nəzarətinin əməkdaşları tərəfindən 320 qram heroin aşkarlanaraq götürülüb. Narkotik vasitənin sifarişçisinin müəyyənləşdirilməsi və saxlanılaraq məsuliyyətə cəlb olunması məqsədilə keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri, 1992-ci il təvəllüdlü Səfərov Kazım Ağəli oğlu və 1994-cü il təvəllüdlü Nəsirov Elyaz Taleh oğlu saxlanılıblar.

Dekabrın 13-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun Əhmədli kəndi ərazisindəki sərhəd zastavasının xidməti ərazisində İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozmuş 1976-cı il təvəllüdlü Bərdə rayon sakini Cəfərov Tələt Allahyar oğlu və 1977-ci il təvəllüdlü Ağcabədi rayon sakini Quliyev Namiq Allahverdi oğlu 2270 qram marixuana ilə yaxalanıblar.

Dekabrın 13-də DSX və Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonu ərazisində "Mercedes" markalı avtomobilə baxış keçirərkən salonda 1145 qram heroin aşkarlanaraq götürülüb. Avtomobildə olan Azərbaycan vətəndaşları Şəmkir rayon sakini 1991-ci il təvəllüdlü Əlizadə Vüsal Yaşar oğlu, Mingəçevir şəhər sakini 1984-cü il təvəllüdlü Soltanov Elçin Muxtar oğlu və Sumqayıt şəhər sakini 1977-ci il təvəllüdlü Hüseynov Hüseyn Novruz oğlu saxlanılıblar. Faktlar üzrə cinayət işləri başlanılıb, zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

## "Dil normalarının pozulması ilə bağlı monitorinqlər artırılmalıdır"



"Dil normalarının pozulmasının qarşısını almaq üçün monitorinqlər getdikcə daha da artırılmalıdır". SİA-nın xəbərinə görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, deputat Nizami Cəfərov "Azərbaycanın media məkanında ədəbi dilin qrammatikasına dəstək" lahiyəsi çərçivəsində keçirilən "Azərbaycanın media məkanında ədəbi dilin qorunması: problemlər və perspektivlər" mövzusunda konfransda deyib. O bildirib ki, aparılan monitorinqlərin nəticəsində dil normalarının düzgün işlənməsinə diqqətin artdığı, səhvlərin azaldığı göz qabağındadır: "Bu gün dillə bağlı ən böyük narahatlıq mətbuatdandır". N.Cəfərovun sözlərinə görə, Azərbaycan mətbuatında üslub axtarışı getmir, publisistik üslub çökür: "Mətbuatımızda fərdi üslub sıradan çıxır".

## Kərə yağı və süddən hazırlanmış digər yağların idxalı azalıb

Bu ilin yanvar-noyabr aylarında Azərbaycana 10 677,64 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib. İdxal olunmuş kərə yağının dəyəri 62 094,19 min ABŞ dollarıdır. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə 3 490,16 min dollar çox, 1 790,04 ton azdır. On bir ayda kərə yağı və süddən hazırlanmış digər yağ məhsullarının idxalı Azərbaycanın ümumi idxalının 0,6 faizini təşkil edib.

# "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib








***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Mətbuat Şurasının rəhbərliyi, millət vəkilləri və media nümayəndələri iştirak ediblər.***

Konfransı giriş sözü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı açaraq "Dini qurumlar və sosial media" mövzusu ilə bağlı fikirlərini bölüşüb. Komitə sədri bildirib ki, sosial media beynəlxalq təşkilatlar səviyyəsində hər zaman müzakirə predmeti olub: "Bu vasitə dünyada insanlar arasında ünsiyyət baxımından digər media nümunələrini üstələyir. Çünki burada hər kəs fərdi şəkildə öz fikrini ifadə edə bilir. Sosial medianın müsbət tərəfləri ilə yanaşı, müəyyən problemləri də var. Bəzi ölkələrdə sosial medianın fəaliyyəti üzərində dövlət səviyyəsində qanunvericiliklə nəzarətin yaradılması istiqamətində addımlar atılıb. Bəziləri bunu azadlığa manea kimi qələmə verirlər.

M.Qurbanlı əlavə edib ki, Avropanın ən inkişaf etmiş ölkələrində belə sosial mediaya nəzarət edilir: "Çünki bu sahədə bəzən dezinformasiya baş alıb gedir. Eyni zamanda, insani dəyərlərə, əxlaqa zidd məsələlərlə əlaqədar məlumatlar geniş şəkildə təşviq və təbliğ olunur. Ona görə də bu mövzu Azərbaycanda da daim diqqət mərkəzindədir".

Daha sonra Dövlət Komitəsinin İctimiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova "Sosial media və din" mövzusunda təqdimatla çıxış edib.

"Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov deyib ki, əgər dinlər arasında mehriban münasibət yoxdursa, bu, bəşəriyyətə xeyir gətirmir: "Əksinə, bəlalar gətirir. Təsadüfi deyil ki, bu məsələ hər zaman medianın gündəmində olub".

Millət vəkili sosial şəbəkələrin sosial media kimi qələmə verilməsinin doğru olmadığını deyib: "Sosial şəbəkələrin sosial media adlandırılmasını qəbul etmirəm. Media peşəkar jurnalistlərin çalışdığı məkandır, sosial şəbəkədə isə müxtəlif əqidələrə xidmət edənlər var. Sosial şəbəkədə kim necə istəyir öz fikirlərini ifadə edir və müəyyən məsələlərdə sərhədlər keçilir. Bəzən təhqirlər və aşağılanma hallarına da rast gəlirik. Sosial şəbəkənin müəyyən təsir gücü var. Hətta mövqeyi olmayanlara da sosial şəbəkədə paylaşılan fikirlər təsir edir. Sosial mediada isə artıq müxtəlif mənsəblər at oynada bilmirlər. Çünki jurnalistlərimiz lazım olan mövzunu seçməyə başladır. Bəzən jurnalistlər sosial şəbəkədə gedən müzakirələri mətbuata gətirir. Burada biz jurnalistlərin də peşəkarlığı önəmlidir. Mövzunun mediaya hansı aspektdən gətirilməsi isə jurnalistin peşəkarlığından asılıdır".

Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov bildirib ki, bəzi qüvvələr sosial şəbəkələrdən fəal istifadə etməklə Azərbaycanı geriyə aparmağa və islami dəyərlərin hakim olduğu İslam dövlətinə çevirməyə çalışırlar: "Odur ki, problemimiz radikal dini cərəyanlarla bağlıdır. Ölkədə sabitliyin pozulması üçün əsas təhlükə radikal dini cərəyanlardan və ideologiyalardan gəlir. Bu sahədə daha ciddi problemlər yaranır. Azərbaycanda baş verən iqtisadi inkişaf ayrı-ayrı ölkələr tərəfindən müsbət qarşılanmır. Bəzi ölkələr var ki, Azərbaycanla bağlı sistemli şəkildə qarayaxma işi ilə məşğuldur. Bundan da Ermənistan, erməni lobbisi istifadə etməyə çalışır".

Ə.Amaşov qeyd edib ki, bütün dünyada olduğu kimi Azərbaycanda da ictimai fikir internet üzərindən yayımlanan mətbuat orqanları, əsasən də sosial şəbəkələr vasitəsilə yayılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxışında diqqətə çatdırıb ki, bu gün sosial media problemi bütün dünyanı lərzəyə gətirir: "Artıq media deyəndə qəzet, jurnalla yanaşı, internet media da bura daxil olub. Lakin sosial şəbəkələri də media kimi qiymətləndirməyimiz düzgün deyil. Sosial şəbəkənin media kimi qəbul olunmamasının səbəbi bu sahədə məsuliyyətin olmamasıdır. Əgər televiziya və jurnalda jurnalist hər hansı məlumat yayırsa, onlar buna görə məsuliyyət daşıyırlar. Amma sosial şəbəkələrdə bu belə deyil. Əlbəttə, ölkəmiz tolerant bir ölkədir. Azərbaycanda keçirilən tədbirlər də ölkəmizin sabitliyini sübut edir. Hər bir vətəndaş dinindən, irqindən asılı olmayaraq onu vətəni hesab edir. Lakin bununla yanaşı xaricdən idarə olunan quvvələr var. İlahiyyatçılarımızın bəziləri xaricdə təhsil alıb. Bu məqam da müəyyən təhlükələr yaradırdı. Bu il Prezidentin sərəncamı ilə İlahiyyat İnistitu yaradıldı. İnstitut bu sahədə kadrların yetişdirilməsi üçün mühüm tol oynayacaq".

V.Səfərli onu da vurğulayıb ki,bu sahədə təbliğata böyük ehtiyac var: "Buna görə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə biz çoxsaylı tədbirlər keçirmişik. Hesab edirəm ki, sosial şəbəkədə nə qədər cəfəngiyyat yayılsa da, jurnalistlər həm sosial şəbəkə, həm də media vasitəsilə onlara cavab verməlidir".

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Aparat rəhbəri Aytən Qəhrəman, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili fikirlərini bölüşüblər. Qeyd edək ki, konfransın keçirilməsində məqsəd sosial şəbəkələrdə dini qurumların fəaliyyətinin müzakirəsidir.

# Bakı - qlobal hərbi-siyasi problemlərin həlli mərkəzi

## Prezident İlham Əliyev: "Aparılan siyasət Azərbaycana dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var"

***Azərbaycanın paytaxtı Bakıda NATO və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin görüşü bir daha sübut edir ki, ölkəmiz nəinki regionda, eləcə də, dünya miqyasında ən qlobal hadisələrin, geosiyasi proseslərin əsas iştirakçısı, problemlərin həlli mərkəzi olaraq tanınmaqdadır. O da əbəs deyil ki, bənzər görüşlər Bakıda ilk dəfədir ki, baş vermir. Daha öncələr də Bakıda Rusiya və ABŞ hərbi rəhbərliyin görüşləri baş tutub və uğurlu nəticələr əldə edilib.***

Daha bir əsas məqam budur ki, bir sıra nüfuzlu hərbi və siyasi ekspertlər yüksək səviyyəli hərbçilərinin görüş üçün Bakını seçmələrini heç də təsadüfi hesab etmirlər. Ona görə də, postsovet məkanında ən uğurlu görüş yeri kimi, məhz Azərbaycana üstünlük verilib.

### Dövlət başçısı: "Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşünün keçirilməsi əlamətdar hadisədir"

Azərbaycan Prezidenti İlham Əliyevin bu məqama diqqət çəkərək irəli sürdüyü fikirləri öz mühümlüyü ilə seçilir. "Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşünün keçirilməsi əlamətdar hadisədir", deyə vurğulayan dövlət başçımız bununla yanaşı, qeyd edib ki, bu, həmçinin ölkəmizə olan rəğbətin nümayişidir: "Aparılan siyasət Azərbaycana dünyada çox böyük hörmət qazandırıb və Azərbaycana çox böyük rəğbət var".

Söz yox ki, istər Rusiya ilə, istərsə də NATO ilə olan münasibətlərin inkişafı da bu reallığı sübuta yetirir. Prezident İlham Əliyevin "Həm Rusiya, həm də NATO ilə Azərbaycanın sıx əlaqələri vardır" ifadəsi də özündə bu gerçəkliyi ehtiva etməkdədir. Dünya kütləvi informasiya vasitələrinin və ekspertlərin Rusiya və NATO generallarının Bakı görüşünə marağı böyük olub. Onlar NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti ilə Valeri Gerasimovun, məhz Azərbaycan paytaxtında bir araya gəlmələrinin arxasında geosiyasi faktorların dayandığına əmindirlər və məhz məsələnin bu aspekti üzərində geniş dayanırlar.



Beləliklə, Bakı hətta soyuq münasibətləri olan ölkələr, təşkilatlar və hərbi-siyasi dairələr arasında ən layiqli barışdırıcı təşəbbüskar kimi çıxış etməklə yanaşı, belə görüşləri ənənəyə çevirir.

### Azərbaycan həm NATO ilə əməkdaşlıq çərçivəsində, həm də Rusiya ilə yaxın münasibətlər qurmuş, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir

Sual oluna bilər ki, belə mühüm görüşün təşkili üçün dünyada kifayət qədər məkan olduğu təqdirdə, nəyə görə, məhz Azərbaycan seçilib? Birmənalı şəkildə, demək olar ki, Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil və balanslı siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir. Azərbaycan həm NATO ilə əməkdaşlıq çərçivəsində, həm də Rusiya ilə yaxın münasibətlər qurmuş, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir. Digər tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu balanslı siyasətinin nəticəsidir ki, istər Rusiyanın hərbi-siyasi dairələri, istərsə də NATO ilə qarşılıqlı hörmətə və etimada əsaslanan yüksək əlaqələri sabit olaraq saxlanılmaqda davam edir. O da əbəs yerə deyil ki, hər iki hərbi mərkəz Prezident İlham Əliyevi etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edir. Onunla əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirlər.

Beləliklə, Bakı görüşü NATO və Rusiya hərbi komandanlıqları arasında son illərdə baş tutan ən yüksək səviyyəli görüş kimi də tarixə düşmək ərəfəsindədir.

***Rövşən NURƏDDİNOĞLU***

# ISESCO-nun baş direktorunun müavini: Naxçıvan təkcə İslam aləminin deyil, bütün dünyanın ən işıqlı şəhəridir

***Naxçıvanın ISESCO-nun İslam Mədəniyyəti Paytaxtı layihəsinə çox mühüm töhfəsi var. Naxçıvanda qorunub saxlanılan miras, inkişaf etmiş mədəniyyət, mövcud tarixi abidələr bu baxımdan yüksək qiymətləndirilir. Naxçıvan, eyni zamanda, Avropa ilə müsəlman Şərqi arasında etibarlı bir körpüdür. Bu da Naxçıvan şəhərini nümunə kimi qiymətləndirməyə əsas verir.***



AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində bu sözləri ISESCO-nun baş direktorunun müavini Əminə əl-Həcri deyib. O vurğulayıb ki, Naxçıvan keçmişdə və müasir dövrdə İslam mədəniyyətinə verdiyi töhfələrə görə haqlı olaraq 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib. Sivilizasiyalararası dialoqda, keçmişlə bu gün arasında mövcud olan ənənələrin bölüşülməsində və islami dəyərlərin gənc nəslə ötürülməsində bu, çox mühüm hadisədir.

ISESCO-nun baş direktorunun müavini bildirib ki, bu layihə çərçivəsində il ərzində görülmüş bütün işlər Naxçıvanın, ümumilikdə, ölkənin beynəlxalq nüfuzunu artıran amillərdəndir. ISESCO Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, Azərbaycan Respublikasında görülmüş bu işləri yüksək qiymətləndirir. Burada keçirilmiş silsilə mədəni tədbirlər, konfranslar Naxçıvan kimi gözəl bir şəhəri görmək, qorunub saxlanılan mədəniyyətlə, insanlarla yaxından tanış olmaq üçün çox gözəldir. Əminə əl-Həcri deyib: "Bu, mənim Naxçıvana ilk səfərim olsa da, çox dərin təəssürat aldım. Sakit, təmiz bir şəhərdə, mehriban insanların əhatəsində olmaqdan xoşbəxtəm. Elə düşünürəm ki, Naxçıvan təkcə İslam aləminin deyil, bütün dünyanın ən işıqlı şəhəridir. Bu işıq hər yerdə, hətta insanların təbəssümündə də hiss olunur. Səfərdən geri qayıtdıqdan sonra gözəl ölkəniz, şəhəriniz haqqında dostlarıma və həmkarlarıma danışacaq çox təəssüratlarım var".

# "Azərbaycanın media məkanında ədəbi dilin qorunması: problemlər və perspektivlər"

***Dünən Beynəlxalq Mətbuat Mərkəzində Mətbuat Şurasının təşəbbüsü ilə "Azərbaycanın media məkanında ədəbi dilin qorunması: problemlər və perspektivlər" mövzusunda konfrans keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, media kapitanları və KİV nümayəndələri iştirak ediblər. Tədbirdə ilk çıxış edən Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov bildirib ki, noyabr ayı ərzində qurum tərəfindən 25 KİV-in monitorinqi keçirilib.***

O deyib ki, Mətbuat Şurası yaranan gündən Azərbaycan dilinin qorunmasına böyük əhəmiyyət verir: "Mətbuat Şurasının dil üzrə Monitorinq qrupu daim mətbuatda dillə bağlı monitorinqlər keçirir, yanlışlıqlarla bağlı fikirlərini bildirir".



Ə.Amaşov qeyd edib ki, Azərbaycan dilinin qorunması ilə bağlı ölkə qanunvericiliyində, qəbul olunan sənədlərdə ciddi şəkildə öz əksini tapıb: "Dilimizin saflığının qorunması və digər məsələlər həmin sənədlərdə mütəmadi olaraq qeyd olunur. Bu kifayət qədər ciddi məsələdir və biz bu məsələləri daim diqqətdə saxlamağa borcluyuq. Dillə bağlı problemlər hamımızın ümumi problemidir. Bu baxımdan çatışmazlıqları düzgün qəbul etməli və bu nöqsanlara yol verməmək üçün çalışmalıyıq".

Daha sonra Azərbaycan Mətbuat Şurasının dil üzrə Monitorinq qrupunun rəhbəri İlham Abbasov noyabr ayında aparılan monitorinqin nəticələrini açıqlayıb. O söyləyib ki, dilin qorunması ilə bağlı Azərbaycan Prezidenti tərəfindən sənədlər imzalanıb: "Bu prosesə alimlər cəlb olunub. Monitorinqlərə təkcə yazılı deyil, elektron resurslar da cəlb olunub. Belə ki monitorinqə 15 qəzet, 10 sayt cəlb olunub".

İ. Abbasov söyləyib ki, aparılan monitorinqin nəticələrinə görə, KİV-lər də leksik pozuntularla bağlı xeyli sayda azalma müşahidə olunsa da qrammatik pozuntular qalmaqdadır: "Durğu işarələri ilə bağlı nöqsanlar, üslub ifadə formasında müəyyən çatışmazlıqlar qalmaqdadır"

Daha sonra çıxış edən Dövlət Dil Komissiyasının üzvü, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu deyib ki, institutda Azərbaycanda ədəbi dil normalarının pozulmasına görə cəzaların icrası üçün tədbirlər planı hazırlanır. Onun sözlərinə görə, bununla bağlı Dilçilik İnstitutuna bu gün məktub daxil olub. Direktor qeyd edib ki, bir çox ölkələrdə ədəbi dil normalarının pozulmasına görə inzibati cəza tədbirlərinin tətbiq edilməsi təcrübəsi var.

Tədbirin davamında çıxış edən AMEA-nın Folklor İnstitutunun direktoru Muxtar İmanov, , Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor, deputat Nizami Cəfərov və digərləri çıxış edərək bu cür monitorinqlərin keçirilməsini təqdirəlayiq hesab ediblər. Natiqlər media nümayəndələrini dillə bağlı normalara düzgün riayət olunmasına və Azərbaycan dilinin saflığının qorunması istiqamətində birgə fəaliyyətə çağırıblar. Konfrans müzakirələr əsasında davam edib.

***Nailə Məhərrəmova***

# Nikol Paşinyanın susdurulması Azərbaycanın qələbəsidir





***Rusiyalı jurnalistlərlə görüşündə Belarus prezidenti Aleksandr Lukaşenkonun söylədikləri, daha dəqiq desək, rəsmi Minskin Azərbaycana silah satışı ilə bağlı Paşinyanın narazılığına verdiyi təhqiramiz və həqiqəti əks etdirən cavabı, Ermənistanda ciddi rezonans doğurub. Azərbaycan prezidentinin yanında Aleksandr Lukaşenkonun Nikol Paşinyanı susdurması da işğalçı dövlətdə ciddi ajiotaja səbəb olub desək, haqlıyıq.***

Belarusun Azərbaycana silah satması ilə bağlı Ermənistanın baş naziri səlahiyyətlərinin icraçısı Nikol Paşinyanın şikayətlərinə Lukaşenkonun təhqiredici cavabını şərh edərkən Ermənistanın sabiq baş naziri, Respublika Partiyasının sədri Aram Sarkisyan bildirib ki, Belarus prezidenti Aleksandr Lukaşenkonun Paşinyana dediyi sözlər xoşagəlməz və yersiz olsa da, o, haqlıdır. Sabiq baş nazir, artıq bu barədə danışmağın belə faydasız olduğunu düşünür və Moskvanın Azərbaycana silah satışını dayandırmasını və bunun digərlərinə nümunə olmasını təmin etmək üçün Rusiyanı NATO ilə "hədələməy"in lazım olduğunu bildirir.

### İdarəolunmaz kütlə qarşısında dil pəhləvanına çevrilən Nikol Paşinyan Belarus prezidentinə cavab verməyə nə söz tapa bilir, nə də arqument

Xatırladaq ki, "əgər Ermənistanın KTMT-də deyiləsi sözü varsa, onda bütün iradlarını Azərbaycana silah satışında birinci yeri tutan, strateji tərəfdaşı və başlıca müttəfiqi olan Rusiyaya bildirməlidir" deyən Belarus prezidenti bununla Paşinyanı susdurub. Çünki Nikol hələ də cavab verməkdə aciz qalıb. Görünür, Ermənistanın küçələrində idarəolunmaz kütlə qarşısında dil pəhləvanına çevrilən bu avantürist Belarus prezidentinə cavab verməyə nə söz tapa bilir, nə də arqument.

Aleksandr Lukaşenko, əslində, Paşinyanı əməlli-başlı təhqir edib. Lukaşenko bildirib ki: "İlham Əliyevin də iştirak etdiyi MDB sammiti çərçivəsində Putinin yanında Paşinyana dedim: Nikol, gəl, bu məsələyə nöqtə qoyaq. Azərbaycana silah satışında birinci yeri kim tutur? Kim? Cavab Rusiyadır. Onda niyə dilini bir yerinə soxub susmusan? Vladimir Vladimiroviçi də tənqid et də. Nədir, qorxursan?" Hətta Belarus prezidenti Azərbaycana silah satışında ölkəsinin ardıcıllıqla Rusiya, İsrail və Türkiyədən sonra dördüncü yeri tutduğunu xatırlatmaqla, haqlı olduğunu da subut etməyi bacarıb.

### Aleksadr Lukaşenkonun Ermənistanın baş naziri səlahiyyətlərinin icraçısına cavabı təkcə Paşinyan deyil, bütün ermənilər üçün layiqli cavabdır

Məsələ burasındadır ki, Aleksadr Lukaşenkonun Ermənistanın baş naziri səlahiyyətlərinin icraçısına cavabı təkcə Paşinyan deyil, bütün ermənilər üçün layiqli cavabdır. Bu cavab erməni cəmiyyətinin Rusiyadan asılılığını da açıb göstərir və əslində, bütün ermənilərin ruslardan necə qorxduğunu, birmənalı şəkildə ifşa edir. Onun bu cavabına Ermənistanın sabiq baş naziri, Respublika Partiyasının sədri Aram Sarkisyanın da reaksiya verməsi heç də təsadüfi deyil. Ona görə təsadüfi deyil ki, sabiq baş nazir olduğu halda, Paşinyanın rəqiblərindən olduğu təqdirdə, Lukaşenkonun haqlı olduğu barədə belə bir rezonans doğuran etiraf etmək məcburiyyətində qalması, bütün erməni cəmiyyətinin qıcıqlandığını təsdiq edir.

Doğrudur, Respublika Partiyasının sədri, "Rusiyanın bizə lazım olduğundan iki dəfə çox biz Moskvaya lazımıq" deməklə, erməni xislətini də gizlədə bilmir. Hətta Rusiyanı NATO ilə hədələmək barədə də məsləhətlər verməkdən də çəkinmir. Guya Ermənistanın NATO ilə əməkdaşlığının genişləndirilməsi nəticəsində, Rusiya qorxuya düşəcək və bununla da, ermənilərə qarşı münasibəti dəyişəcək. Hazırda NATO ilə münasibətləri soyuq olan Rusiya qurumun özündən də yox, ona yaxınlaşmaq niyyətində olan Ermənistandan bu yaxınlaşmaya, bu əməkdaşlığa görə qorxacağı çox gülünc səslənir.

Sual oluna bilər, Respublika Partiyasının sədri bu "dəyərli" məsləhətlərdən niyə hakimiyyətdə olduğu dövrdə özü faydalanmırdı və keçəlin dərman bildiyini niyə öz başına sürtmürdü? Hər zaman olduğu kimi, respublikaçıların da hakimiyyəti dövründə Ermənistan Rusiyanın ətəyindən əl çəkmirdi axı. İndi bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, NATO da, Qərb mövzusu da küçələrə toplaşan ermənilər, daha doğrusu, hakimiyyət hərisi olan Paşinyan üçün bir bəhanədir.

Ermənistan nə bir dövlət, nə də bir ərazi olaraq, Rusiyanın dəstəyi olmadan mövcud ola bilməz. Doğrudur, ermənilər özlərinə məxsus nankor xisləti ortaya qoydular və utanmadan rusların dəstəyini dandılar. Amma nə Nikol Paşinyan, nə Serj Sarkisyan, nə də ən sıravi bir erməni Rusiyasız, rusların dəstəyi olmadan Ermənistanı bir an belə təsəvvür etmir və bu mənada, hər biri haqlıdır. Çünki, rusların himayəsində yaşamağı öyrənmiş və mövcudluğunu yalnız bununla qorumuş bir dövlət üçün, özü də işğalçı dövlət üçün bu himayədən məhrum olmaq birmənalı şəkildə, məhv olmaq və Ermənistanın süqutu deməkdir.

### Rusiya, İsrail, Türkiyə və digər dünya dövlətləri ilə yanaşı, Belarus da Ermənistanın deyil, Azərbaycanın yanındadır

Ermənistanın baş naziri vəzifəsini icra edən küçə nümayişçisinin susdurulması, Belarus prezidentinin sözləri qarşısında Nikol Paşinyanın susqunluğu başadüşüləndir və əslində, bu, onun çarəsizliyinin təzahürüdür. Çünki hər hansı cavab, nəinki Paşinyanın özünün, hətta bütün Ermənistanın əleyhinə yönələ bilər. Başda Paşinyan olmaqla, bütün Ermənistan ictimaiyyəti Rusiya faktoru ilə barışmaq, hesablaşmaq məcburiyyətindədir və Ermənistan kimi səfalət içində olan dövlətin Rusiya kimi fövqəldövlətdən qorxmasında qeyri-adi heç nə yoxdur.

Aleksanr Lukaşenko Nikol Paşinyanı susdurmaqla yerini göstərdi və təkcə Azərbaycana silah satmaqda deyil, ölkəmizlə bütün sahələrdə əməkdaşlıq etməkdə haqlı və israrlı olduğunu bildirdi. Bildirdi ki, Rusiya, İsrail, Türkiyə və digər dünya dövlətləri ilə yanaşı, Belarus da Ermənistanın deyil, Azərbaycanın yanındadır və ölkəmizin mövqelərini müdafiə edir.

Belarus prezidentinin bu mövqeyi, əslində, ölkəmizin diplomatik qələbələrindən biridir. Bu diplomatik qələbə birinci və sonuncu deyil. Hadisələrin gedişi, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin uğurlu siyasəti və rəhbərliyi sayəsində Azərbaycan bundan sonra da sona qədər qələbələrə imza atacaq. İndi, nəinki Ermənistan cəmiyyəti, bütün dünya ictimaiyyəti də çox yaxşı başa düşür ki, Nikol Paşinyanın susdurulması Azərbaycanın qələbəsidir.

***İnam HACIYEV***

# Avropadakı satqın "siyasi mühacir"lər layiq olduqları cəzanı almalıdırlar

*Ekspertlər Azərbaycan hüquq-mühafizə orqanlarını sərt addımlar atmağa çağırdılar*

Avropada gizlənib sosial şəbəkələrdə Azərbaycana qarşı təhqiramiz ifadələrlə çıxış edən Orduxan Teymurxanın və Vidadi İsgəndərlinin təlimatlandırılmasında və onlara müəyyən göstərişlər verməsində Əli Kərimlinin, Cəmil Həsənlinin və Arif Hacılının xüsusi rolu olduğu öz təsdiqini tapmaqdadır. Bu isə, bir daha daxili və xarici məkrli ünsürlərin ölkəmizə düşmən kəsildiklərini göstərir. Söhbət etdiyimiz müsahiblərimiz Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən sapı özümüzdən olan baltaların satqın və xəyanətkar olduqlarını bildirdilər. Qeyd etdilər ki, satqın və xəyanət yolu tutan Avropadakı "siyasi mühacirlər"in cəzalandırılması üçün Azərbaycanın hüquq-mühafizə orqanları sərt addımlar atmalıdırlar.

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Əli Kərimlinin və Arif Hacılının məşğul olduqları siyasət deyil"



- AXCP-Müsavat partiyalarının funksionerləri, uzun illərdir ki, Azərbaycanın siyasi meydanlarında atılıb-düşürlər. Amma onlar, əslində, bir siyasətçi kimi özlərini təsdiq etməyiblər. Onlar meydanlarda atılıb-düşən, siyasətlə məşğul olmaq imitasiyası yaradan adamlardır. Əslində, siyasətlə məşğul olmaq, siyasətçi olmaq, siyasi fəaliyyətlə məşğul olmaq tamam başqa bir anlayışdır. Bu siyasi nəzəriyyələri əgər onlar bilmirlərsə, siyasi nəzəriyyələrə müraciət etsinlər və baxsınlar. O elimi mənbələrdə bunun açıqlaması göstərilir. Bunların məşğul olduqları tamamilə ilə başqa bir şeydir. Yəni Əli Kərimlinin və Arif Hacılının məşğul olduğu siyasət deyil. Görünür, onların əlindən başqa iş gəlmir. Bu illər ərzində, yalnız asan fəaliyyət yolu seçiblər özləri üçün. İqtidarın gördüyü böyük, möhtəşəm işlərə qara yaxmaq, şərböhtan yağdırmaq və bununla da, xaricdə kimlərinsə diqqətini cəlb etmək, gündəmdə qalmaq və bu cür yaşamaq onların əsas fəaliyyətləridir. "Siyasi mühacir"lər deyilən şəxslər gəlincə, gec-tez onlar layiq olduqları cəzanı alacaqlar. Bu, qaçılmazdır.

### "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Mühacir adını daşıyan ünsürlərin ağlı çatmır və başları boşdur"



Müxaliflərin və xaricdəki "söyüş qrupu"nun, ümumiyyətlə, siyasi mədəniyyətləri yoxdur. Xüsusi ilə, mühcir adını daşıyan ünsürlərin ağlı çatmır və başları boşdur. Yəni əgər sən müxalifətsənsə, dövlətə, dövlətçiliyə qarşı, milli mənafelərə qarşı müxalifət ola bilməzsən. Bu müxalifətçilik deyil, anti-dövlət fəaliyyəti, anti-Azərbaycan fəaliyyətdir. Əli Kərimlinin, Cəmil Həsənlinin, Arif Hacılının və onlar kimi digər özünü müxalifət adlandıran siyasilərin də fəaliyyəti bu istiqamətə yönəlmiş fəaliyyətdir. Bu baxımdan, istər ölkə daxilində, istərsə də ölkə xaricində istənilən bir adam Azərbaycana qarşı addım atırsa, Kərimli və Hacılı həmin adamlara dəstək verməyə başlayır. Eyni zamanda, burada başqa bir səbəb də var, həmin şəxsləri xaricdəki anti-Azərbaycan qüvvələr maliyyələşdirir. Ölkə daxilində özünü siyasətçi və müxalifət adlandıran bu insanlarda bütün gəlirləri, ciblərini məhz həmin anti-Azərbaycan qüvvələr vasitəsi ilə doldururlar. Bu baxımdan, bunları birləşdirən bir iqtisadi mərkəz var ki, həmin iqtisadi mərkəzdən maliyyə göndərən şəxslərdən gələn tapşırıqları təbii olaraq yerinə yetirirlər. Yəni xaricdə olan Orduxan və İsgəndərli kimilərinin çıxışlarına ölkə daxilindən dəstək vermək bunların özünün anti-Azərbaycan fəaliyyətinin tərkib hissəsidir. Həm də bunlara gələn sifarişi yerinə yetirirlər.

***GÜLYANƏ***

# "Azərbaycan Rusiya ilə daha dərin strateji münasibətlər qurmağa hazırdır"



***"Rusiya-Azərbaycan münasibətləri sabit inkişaf xəttinə və yüksələn dinamikaya sahib olan münasibətlərdir. Strateji xarakter daşıyır və çoxvektorludur. Həm ikitərəfli, həm də çoxtərəfli formatda eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraqlara və səmərəli əməkdaşlığa əsaslanır. Ona görə də bu münasibətləri bütöv bir sistemə sahib strateji tərəfdaşlıq kimi də qiymətləndirmək olar". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.***

Millət vəkilinin sözlərinə görə, sosial-iqtisadi və mədəni humanitar sferalarımızın bütün sahələrində bu əməkdaşlığı müşahidə etmək mümkündür: "Ancaq əlbətdə ki, bu münasibətlərdə önə çıxan ən strateji məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində Rusiyanın həm qonşu ölkə, həm də ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi oynaya biləcəyi roldur. Rusiya tarixən ənənəvi olaraq Qafqaz regionunda ciddi hərbi-siyasi rıçaqlara malik olan dövlətdir və son iki əsrdə əslində bu regionu siyasi baxımdan az qala təkbaşına yenidən dizayn edən güc mərkəzidir. Azərbaycan bu baxımdan tarixi və hazırki siyasi reallıqları qiymətləndirməyi yaxşı bacarır və belə əhəmiyyətli bir ölkə ilə haqlı olaraq çox dərin strateji münasibətlər qurur. 2018-ci il isə bu baxımdan olduqca əhəmiyyətli olmaqla, həm də bundan sonrakı münasibətlərə yeni müsbət impulslar verən il oldu.

Uzun illərdir davam edən Xəzərin hüquqi statusu ilə bağlı olan problemlər bütün tərəflərin maraqları nəzərə alınmaqla xüsusi konvensiya ilə həllini tapdı. Təkcə sentyabr ayında Rusiya Prezidentinin Azərbaycana, Azərbaycan Prezidentinin isə Rusiyaya işgüzar səfərləri oldu. Bundan başqa MDB dövlət başçılarının Rusiyanın Şimal paytaxtında keçirilən görüşündə iki ölkə prezidentləri arasında mühüm danışıqlar aparıldı. Ona görə də Azərbaycan Prezidenti cənab İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən bu görüşü 2018-ci ildə birgə görülən işlərin təhlili və 2019 -cu ildə görüləcək işlərin planlaşdırılması baxımından mühüm görüş kimi qiymətləndirdi. 2018 -ci ili dövlətlərarası münasibətlərin inkişafı kontekstində məhsuldar il kimi səciyyələndirdi. Əslində təkcə bu fikirlər iki ölkə arasında münasibətlərin nə qədər yüksək səviyyədə olmasından xəbər verməklə, həm də bu münasibətlərin olduqca böyük perspektivlərə malik olmasının da göstəricisidir. Əlbəttə regional siyasi-iqtisadi münasibətlərin potensial inkişafı və qarşılıqlı inteqrasiyası üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həll edilməsi vacib şərtdir. Bu məsələdə Rusiyanın mühüm rol oynaya biləcəyinə işarə edən Prezident İlham Əliyev 2019-cu ilin nizamlama prosesinə yeni impuls verəcəyinə ümid etdiyini bildirdi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə iki ölkə prezidentləri arasında 2018-ci ildə keçirilən 6 görüşdə əldə edən razılaşmaların həyata keçiriləcəyinin və bunu regional inkişafa yeni töhfələr verəcəyini söyləyərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli məsələsində Rusiyanın əlindən gələni edəcəyini bildirdi.

Ümid etmək olar ki, hazırda dünyada baş verən mürəkkəb qlobal kataklizmlər kontekstində Rusiya Federasiyası öz ətrafında sabit və əməkdaşlığa meyilli bir-bir regional ittifaq yaratmaqla əslində həm də özünün təhlükəsizliyini təmin etməkdə maraqlı olmalıdır. Hazırda beynəlxalq şərtlər son dərəcə kritikdir və ayrıca götürülmüş halda heç bir ölkə təkbaşına öz təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Bu Rusiya diplomatiyasına da bəllidir. Ona görə də Cənubi Qafqazda ən böyük münaqişə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsi böyük ölçüdə elə Rusiyanın da cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması deməkdir. Azərbaycan etibarlı tərəfdaş kimi daima öz milli maraqlarını regional təhlükəsizlik maraqları ilə uzlaşdırmağa hazırdır və strateji müttəfiqi hesab etdiyi Rusiya ilə daha dərin strateji münasibətlər qurmağa hazırdır".

***Ceyhun Rasimoğlu***

# Millət vəkili Məlahət İbrahimqızı Beynəlxalq Forumda çıxış edib





Hindistanın paytaxtı Yeni Dehlidə Hindistan hökumətinin, şəxsən baş nazirinin ev sahibliyi ilə Beynəlxalq Forum keçirilmişdir. Forum Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində Ana, Uşaq və Gənclərin sağlamlığı probleminin həllində beynəlxalq əməkdaşlığın roluna həsr edilmişdir. Dünyanın 85 ölkəsindən 1500-ə yaxın yüksək səviyyəli təmsilçilər bu forumda iştirak edib. Forum BMT-nin, Ümumdunya Parlament İttifaqının, Avropa, Asiya və Afrika Parlamentar məclislərinin, Umumdünya Səhiyyə Təşkilatının, Hər bir Qadın və Hər bir Uşaq Beynəlxalq təşkilatının, Ana, Uşaq və Gənclərin Sağlamlığı üzrə Beynəlxalq Əməkdaşlıq təşkilatının və bir sıra nufuzlu beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunmuşdur. Forumun əsas tədbirlərindən biri də parlamentarların, nazirlərin, yüksək səviyyəli hökumət rəsmilərinin, bəzi ölkələrin Birinci Xanımlarının və Hindistanın və Nepalın Baş Nazirlərinin, baş nazirin müavinlərinin iştirakı ilə keçirilən xüsusi plenar və sessiya iclasları idi. Forumda Milli Məclisin Səhiyyə Komitəsinin üzvləri Məlahət İbrahimqızı, Kamilə Əliyeva, Sosial Qanunvericilik şöbəsinin müdiri Adilə Abbasova, Ana və uşaq sağlamlığı üzrə ekspert Xatirə Mirzəyeva iştirak ediblər. Forum BMT-nin Baş Katibi Guterosun təbriki ilə işinə başlayıb. Sonra isə Hindistanın Baş naziri Narendra Modi, UNFPA-nın İcraçı Ditektoru dr. Natalya Kanem, Dünya Parlament İttifaqının prezidenti xanım Qabriela Barron, Ümumdünya Səhiyyə Təşkilatının və bir sıra yüksək səviyyəli çox mötəbər siyasətçi və dövlət adamları Forumun Açılış Sessiyasında çıxış ediblər. Forumun plenar iclasında Əhaliartımı və İnkişaf üzrə Avropa Parlament Forumun adından millət vəkili Məlahət İbrahimqızı çıxış etmişdir. Forumun 1-ci günü İPU-nun prezidenti dünyanın müxtəlif ölkələrindən gəlmiş siyasətçiləri ilə ayrıca forumla bağlı müzakirə keçirərək, DİM-in həyata keçirilməsində parlamentarların rolu müzakirə olunmuşdur.



Xanım Qabriela, İPU-nun Azərbaycan Parlamenti ilə, xüsusilə də Azərbaycanın Prezidenti və Birinci vitse Prezidenti ilə olan əməkdaşlığı, DİM sahəsində görülən işləri yüksək qiymətləndirmiş 4 dəfə Azərbaycana səfər etdiyini bildirmişdir. Forumun 2-ci günü millət vəkili Məlahət İbrahimqızı Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində Ana, Uşaq və Gənclərin sağlamlığı probleminin həllində milli parlamentarların rolu mövzusunda təqdimatla çıxış etmişdir. Millət vəkili M.İbrahimqızı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə DİM sahəsində görülmüş işlər və ötən üç il ərzində əldə olunmuş nailiyyətlər haqqında forum iştirakçılarına ətraflı məlumat vermişdir. Bu təqdimatdan sonra iştirakçıların DİM-in həyata keçirilməsində Azərbaycan hökumətinin müsbət təcrübəsi ilə bağlı bir sıra sualları da cavablandırılmışdır.

Səfər proqramı çərçivəsində Hindistan Parlamentində millət vəkillərindən ibarət Ana, Uşaq və Gənclərin sağlamlığı üzrə qrupun üzvləri ilə görüş olmuş, parlamentarlar arasında çoxtərəfli və ikitərəfli müzakirələr keçirilmişdir. Forumda iştirak edən millət vəkilləri Hindistanın məşhur tibb elmləri univeritetindən biri olan Hamdard Universitetində görüş və müzakirə də keçirilmişdir. Millət vəkilləri M.İbrahimqızı, Kamilə Əliyeva və şöbə müdiri Adilə Abbasova Azərbaycanın tibb təhsilindən və son illərdə bu sahədə gedən islahatlar haqqında məlumat veriblər. Universitetin Analığın Mühafizəsi, Neonatal və Perinatal Xidmətin Azərbaycan təcrübəsindən danışıb. Hindistan Senatında görüş keçirilmiş Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində Ana, Uşaq və Gənclərin sağlamlığı probleminin həllində milli parlamentarların əməkdaşlığı bir daha müzakirə olunmuşdur. Forumun keçirildiyi müddətdə zəngin hind mədəniyyətini özündə əks etdirən müxtəlif mədəniyyət proqramları da təşkil olunmuşdur.

***ZÜMRÜD***

# Suraxanıda daha 500 ağac əkilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması, yeni yaşıllıq zolaqlarının salınması istiqamətində mühüm işlər görülür. Ölkənin hər yerində olduğu kimi, Bakı şəhərində də yeni yaşıllıqların salınması istiqamətində görülən işlərin miqyası artıb. Bu baxımdan, paytaxtın Suraxanı rayonunda da xeyli iş görülüb. Ətraf mühitin yaxşılaşdırılması məqsədi ilə cari ilin ötən dövründə rayon ərazisində 6 minə yaxın ağac əkilmiş, neft əməliyyat şirkətləri tərəfindən ümumi sahəsi 5,77 hektar olan müxtəlif ölçülü 79 gölməçə qurudulmuş, neftlə çirklənmiş 20 hektar torpaq sahəsi təmizlənmişdir. Hazırda ağacəkmənin növbəti mərhələsi rayonun bütün qəsəbələrində uğurla davam etdirilir.





Suraxanı rayon icra hakimiyyətinin və Azərbaycan Respublikası Ekologiya və təbii sərvətlər nazirliyinin birgə təşkilatçılığı ilə növbəti ağacəkmə rayonun Qaraçuxur qəsəbəsi, Etibar Bəkirli küçəsinin ətrafında keçirilmişdir. Ağacəkmə aksiyasında rayon sakinləri olan tanınmış ziyalılar, elm, idman, incəsənət, mədəniyyət sahəsində çalışan tanınmış şəxslər, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, rayon icra hakimiyyətinin nümayəndələri, RİHB-nin qəsəbə inzibati-ərazi dairəsi üzrə nümayəndəlikləri, qəsəbə bələdiyyələri, rayonun idarə və müəssisələrinin kollektivləri iştirak etmişdir.

250 nəfərin iştirak etdiyi iməcilikdə müvafiq təmizləmə işləri aparılmış, abadlıq işləri görülmüş, mövcud olan yaşıllığa qulluq edilmiş və 500-dən artıq sərv, çinar və Eldar şamı ağacları əkilmişdir.

Bu aksiyaların keçirilməsində məqsəd yaşıllıq zolaqlarını genişləndirmək, rayonun ekoloji tarazlığını bərpa etmək, insanlar arasında təbiətə qayğı hissini təbliğ etməkdir. Davamlı şəkildə həyata keçirilən ağacəkmə aksiyaları nəticəsində rayonun ərazisi abadlaşır, yaşıllıqlarla zənginləşir, ekoloji mühit sağlamlaşır və torpaq qatı münbitləşir.

Mövsümün sonuna qədər rayonda ağacəkmə aksiyalarının davamlı keçirilməsi nəzərdə tutulmuşdur.

***ZÜMRÜD BAYRAMOVA***

# Ermənistan Rusiyanın qara siyahısında



***Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsindən bir həftə keçməsinə baxmayaraq, Rusiya prezidenti Vladimir Putin hələ də Nikol Paşinyanı təbrik etməyib. Bu isə, Ermənistana ciddi ismarıcdır. Əslində, bu, Ermənistana, Paşinyana bir mesajdır ki, bizim münasibətlərimiz pisdir, indiki halda, şəxsi münasibətlərimiz yaxşı ola bilməz. Məsələn, Ermənistanın keçmiş prezidenti Robert Koçaryanla bağlı nümunəni önə çəkək. Hamı bilir ki, Koçaryan Putinin dostu sayılır. Ona görə Koçaryanın parlament seçkilərindən az öncə, həbs olunması Paşinyandan Putinə bir ismarıc hesab edilməlidir. Fikrimcə, Rusiya, xüsusən, Putin bu addımı qəbul edib elə-belə bağışlamayacaq. Lakin Paşinyan da Koçaryanın həbsini elə-belə rahatca həzm edə bilməyəcək.***

Sözügedən məsələ ilə bağlı politoloqlar bildirirlər ki, bütün bunlar onu təsdiqləyir ki, Paşinyanı Rusiya tərəfi saymır.

## Qabil Hüseynli: “Zaxarova çox təhqiramiz və ikibaşlı şəkildə izah edib”

Politoloq Qabil Hüseynli bildirir ki, Rusiya prezidenti Vladimir Putinin Ermənistanda keçirilən seçkidə qələbə qazanan Nikol Paşinyanı hələ də təbrik etməməsinin səbəblərinə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova unikal formada aydınlıq gətirib: “Zaxarova erməni mediasının bu yöndə sualına cavab olaraq deyib: “Mənə elə gəlir ki, bu, sənə dəfələrlə etiraf etməyini bilə-bilə kişidən onu sevib-sevmədiyini soruşmağa bənzəyir”.

Q.Hüseynli bildirib ki, göründüyü kimi, Zaxarova çox təhqiramiz və ikibaşlı şəkildə izah edib. O bildirib ki, Zaxarovanın ifadəsini təhlil etsək, müxtəlif yozumlara və mənalara gəlib çıxmaq olar: “Bu onu göstərir ki, rəsmi Kremldə Ermənistanla bağlı çox ciddi tərəddüdlər var. Bu tərəddüdlər, hələ ki, formalaşıb qəti bir nəticəyə gəlib çıxmayıb. Amma Ermənistanla bağlı məsələlərdə Kreml çox ehtiyatlı davranmağa çalışır. Bir sözlə, əvvəllər olduğu kimi, Rusiya Ermənistanı əzizləyib sinəsinə basmağa hazır deyil. Digər tərəfdən, Rusiya avtoritar rejimdir. Belə rejimlər özünə yaxın olan dövlətləri (rejimləri) hətta seçkilərin nəticələri elan edilmədən təbrik edir. Ermənistanda istər Koçaryan, istərsə də Sarkisyan dövründə seçkilərin rəsmi nəticələri elan edilmədən Rusiya prosesləri qabaqlayaraq onları təbrik edirdi”.

Politoloqun sözlərinə görə, Paşinyan əvvəl yol verdiyi səhvlərin nəticələrini və bəhrələrini dadmaqdadır: “Qərb də tərəddüdlü mövqedədir. Əvvəla, Qərb belə hesab edir ki, nə olur-olsun, Ermənistan Rusiyanın ağuşundan çıxmayacaq. Çıxsa da, onu böyük fəlakətlər gözləyə bilər. Necə ki, vaxtı ilə Ermənistan parlamentində güllləbaran hadisəsi baş verdi. Orada Rusiyanın cızdığı xətdən kənara çıxan adamların hamısı sıradan çıxarıldı. İndi də Rusiya həm zorbalıq nümayiş etdirir, həm də Paşinyana öz yerini göstərməyə çalışır. Paşinyanın “gəlin, bir-birimizin daxili işlərinə qarışmayaq” kimi vaxtı ilə Putinə söylədiyi ifadələrdən yola çıxaraq, Putin də bu gün ona belə bir münasibət sərgiləyir”.

Q.Hüseynli vurğulayıb ki, Paşinyana qarşı Aİ müəyyən həmrəylik nümayiş etdirir: “Amma Ermənistan üçün ən əhəmiyyətlisi Rusiyanın təbriki və münasibətidir. O münasibət də ortada yoxdur. Bu, o deməkdir ki, gələcəkdə Ermənistanın yeni baş naziri Paşinyan ya gedib Putinin ayağına düşməli, ona olan sədaqətini yalvara-yalvara göstərməli, ya da bu münasibətlər gərginləşən xətt üzrə davam etməlidir. Kifayət qədər ziddiyyətli və bəzi məqamlarda başa düşülməsi çətin olan vəziyyət yaranıb. Bu vəziyyətin yaranmasında da Paşinyanın özü çox böyük rol oynayıb. Hazırda Paşinyan “nə tökərsən aşına, o da çıxar qaşığına” prinsipi üzrə seçkidən əvvəl özünün yol verdiyi siyasi yanlışların ağrı-acısını dadmaqdadır. Yəqin ki, bütün bunlar gələcəkdə Paşinyana xalqa verdiyi vədlərin yerinə yetirilməsində çox ciddi çətinliklər yaradacaq”.




## Ermənistan-Rusiya münasibətləri: vassalın qaranlıq gələcəyi

Bu yerdə, atalar demişkən, “Keçinin buynuzu gicişəndə, çobanın çomağına sürtər”. Bu gün Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılı vəziyyətdədir. Maraqlısı odur ki, bu asılılıq hər keçən gün Ermənistanın əleyhinə artır. Ermənistanın Rusiyadan asılılığını gücləndirən və davam etdirən başlıca amil Azərbaycan torpaqlarını işğal etməsidir. Bu amil, əsasən, digər sahələrdəki asılılığı da bərabərində gətirir. Ermənistan 25 ildir, Dağlıq Qarabağ və ətraf rayonları işğal altında saxlayır. Halbuki bu qondarma qurumu nə özünə birləşdirə, nə də müstəqilliyinin tanınmasına nail ola bilir. Dağlıq Qarabağ, sözün həqiqi mənasında, Ermənistanın kürəyində ağır yükdür. Ermənistanın müalicə etməkdən imtina etdiyi o yük isə hər keçən il onun onurğa sütununu bir az daha əyir, bir az Rusiyaya doğru meyilli edir, bir az daha bu ölkədən asılılığı artırır.

## Lukaşenko Paşinyana dərs verdi



## Lukaşenko: “ATƏT Minsk Qrupu Yerevan və Bakı olmadan Qarabağ münaqişəsini həll etməyəcək”

Belarus prezidenti Aeksandr Lukaşenko, ilk dəfə olaraq, Dağlıq Qarabağ probleminin həlli üçün Ermənistana və Azərbaycana özü tərəfindən edilmiş təklifləri rus KİV-ləri ilə görüşü zamanı bildirib ki, Qarabağ məsələsi KTMT-nin Yerevanda keçirilmiş sammitində o zamankı prezident Serj Sarkisyanla müzakirə edilib. Belarus lideri Azərbaycan və Ermənistan prezidentlərini güzəştlərə gedərək, bir yerdə problemi həll etməyə çağırıb: “Daha açıq dedim: “Qulaq as, onlar demişkən, 7 rayonu işğal etmisiniz. Mən və Putin tarazlaşdırılmış mövqe tutumuşuq. Serj, bu 5 rayonu qaytar. Onları qaytarmağının səbəbi nədir? Boş ərazilərdir”. Serj deyir: “Əgər o rayonları qaytarsam, azərbaycanlılar yolu bağlayacaqlar və Qarabağı tutacaqlar. Mən və Putin dəqiq vəd etdik ki, biz öz ordularımızı yeridəcəyik, buna imkan verməmərik. O dedi: “Yox, biz buna getməyəcəyik, istəmirik...”

Lukaşenkonun sözlərinə görə, Sarkisyanın mövqeyi onda böyük təəccüb doğurub: “Niyə istəmirlər? 5 rayon boş əraziyə çevrilib. Bu, birinci addımdır. O zaman Azərbaycan da, Ermənistan da KTMT-də, Avrasiya İttifaqında olardı. Niyə ermənilər imtina edələr? Yaxşı, Belarus və Rusiya qarant kimi çıxış edirdilər, deyirdik ki, əgər bu beş rayon azad edilsə, orada heç bir müharibə olmayacaq. Siz bu rayonların Azərbaycana aid olduğunu deyirsiniz. Bu ərazi axı Qarabağ deyil.”

## Aydın Mirzəzadə: “Paşinyan anlamalıdır ki, Qarabağ münaqişəsi nizamlanmadan, Ermənistanın heç bir problemini köklü şəkildə həll etmək olmaz”

Milli Məclisin deputatı Aydın Mirzəzadə sözügedən məsələ ilə bağlı bildirib ki, “Prezident İlham Əliyev Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışı zamanı Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı prinsipial mövqeyini bir daha ortaya qoydu: “Dövlətimizin başçısı Azərbaycanın heç bir zaman ərazi bütövlüyü prinsipindən əl çəkməyəcəyini və bütün torpaqlarının qaytarılması istiqamətində fəaliyyət göstərəcəyini bir daha bəyan etdi”.

A.Mirzəzadə vurğulayıb ki, bu gün Azərbaycan torpaqlarını işğal edən Ermənistan çox ağır vəziyyətdədir və ciddi problemlər içərisindədir: “Bu ilin aprelində Ermənistanda baş verən hadisələrin Dağlıq Qarabağ problemindən irəli gələn çətinliklərdən yarandığını bir daha gördük. Yeni hakimiyyət dərk etməlidir ki, Dağlıq Qarabağ münaqişəsi nizamlanmadan, Ermənistanın heç bir problemini köklü şəkildə həll etmək olmaz. Bu gün Ermənistan cəmiyyəti Nikol Paşinyandan, ilk növbədə, Ermənistanı təcrid vəziyyətindən çıxarmağı, sosial problemlərin həllini tələb edir və əgər Paşinyan Koçaryan-Sarkisyan siyasətini davam etdirəcəksə, onda heç bir irəliləyiş əldə edilməyəcək”.

Millət vəkili bildirib ki, Azərbaycan isə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində inkişaf edən səmərəli iqtisadiyyata və vətəndaş birliyinə malikdir: “İki il bundan əvvəlki aprel döyüşləri göstərdi ki, Azərbaycan Dağlıq Qarabağ problemini hərbi yolla da həll etmək gücündədir. Bu baxımdan, Paşinyan Azərbaycanın işğal edilmiş torpaqlarının qaytarılması istiqamətində hər hansı addım atmalıdır, əks halda, Ermənistan iki il bundan əvvəlkindən də ağır məğlubiyyətə düçar olacaq.

**R.HÜSEYNOVA**

# Azərbaycanda sosial-müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah

## İlham Əliyev: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"



***Bu gün, birmənalı tərzdə demək olar ki, aparılan düzgün və məqsədyönlü sosial siyasət nəticəsində ölkəmizdə sosialyönümlü dövlət quruculuğu uğurla təmin olunub. Hər il dövlət büdcəsi artırılmaqla yanaşı, sosial müavinətlərin, aztəminatlı ailələrə verilən ünvanlı sosial yardımların, əmək haqlarının, şəhid ailələrinin, Qarabağ müharibəsi iştirakçılarının müavinətlərinin artırılması barədə qərarlar verilir. Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin apardığı siyasətin xalqın firavan yaşamasına, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə hesablanıb.***

Söz yox ki, bu uğurlara gərgin əmək, fasiləsiz zəhmət, müdrik siyasət nəticəsində nail olunub. Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəldiyi zaman respublika həyatının bütün sahələrində tənəzzül hökm sürürdü. Ancaq Ulu Öndərin parlaq zəkası, yüksək dövlətçilik bacarığı və uzaqgörən siyasəti sayəsində tərəqqiyə doğru ciddi dönüşə nail olundu. Həyata keçirilən düzgün və məqsədyönlü siyasət nəticəsində respublika iqtisadiyyatının inkişafı, yeni strateji əhəmiyyətli müəssisələrin yaradılması, sənaye və kənd təsərrüfatının inkişafı, kadr potensialının formalaşdırılması istiqamətlərində məqsədyönlü tədbirlər həyata keçirildi, əhalinin rifahının təminatı, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əməli addımlar atıldı. Bu siyasətin dönməzliyi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın çağırışı ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlişindən sonra da çoxşaxəli şəkildə davam etdirildi. Yenidən respublika rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəni bütün təhlükələrdən xilas edərək, onu böyük inkişaf yoluna çıxarmış, eyni zamanda, mühüm sosial müdafiə tədbirlərinin təməlini qoymuşdur. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan iqtisadi sahədə böyük potensiala malikdir. Biz bu sahədə bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə gedirik və bunun üçün lazımi tədbirlər görürük. Yəni, 70 il sosialist quruluşunda sosial-iqtisadi, siyasi-iqtisadi və siyasi prinsiplər əsasında yaşayan bir respublika, indi müstəqil dövlət kimi, dünyanın inkişaf etmiş ölkələrinin həm ictimai-siyasi prinsiplərindən, həm də iqtisadi-sosial prinsiplərindən istifadə edərək, öz həyatını özü qurur".

### SOSİAL SİYASƏT KURSUNUN ETİBARLI ƏSASI QOYULDU

Ulu Öndər Heydər Əliyev 1994-cü ilin 15 iyun tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərman, Fərmandan irəli gələn vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" növbəti sənəd imzaladı. İnsanların sosial müdafiəsinin mükəmməl və etibarlı şəkildə təmin olunması üçün hüquqi bazanın daha da möhkəmləndirilməsi istiqamətində 1995-ci ildə Ümummilli Liderin birbaşa müəllifliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Konstitusiyanın 16-cı maddəsində qeyd olunur ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Ulu Öndər qeyd edirdi ki, "Dünya iqtisadiyyatının inteqrasiya, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəltmək üçün bu, yeganə bir yoldur". 13 iyun 1997-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" qanun pensiya sistemində həmin dövr üçün zəruri hesab edilən bir sıra islahatlara yol açdı. Bununla da, ölkə üzrə pensiyaçıların yarıdan çoxunun pensiyasının məbləği 2,2 dəfə qaldırılmış, eləcə də əlillərin, tənha və ahıl vətəndaşların, sosial pensiyaçılara əlavə müavinətlər müəyyən edilmişdir. Başlıcası isə bu siyasət sonrakı dövrdə də davam etdirilmişdir. 1998-ci ilin avqust ayından şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin pensiyalarının məbləği 2 dəfədən çox artırılmışdır. Ulu Öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşırdı, maliyyə imkanlarımızın hələ aşağı olduğu 1997-2003-cü illərdə 508 əlil ailəsi mənzillə, 138 ailə isə fərdi evlə təmin olunmuşdu. 1998-2002-ci illərdə 1090 nəfər əlilə minik avtomobili verilib. Bir sözlə, 1993-2003-cü illərdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial müdafiə sahəsində də konkret və məqsədyönlü işlər görülmüş, ilbəil çevik xarakter alan sosial siyasət kursunun etibarlı əsası qoyulmuşdur.

### AZƏRBAYCANIN SOSİAL UĞURLARI YENİ MƏRHƏLƏDƏ

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti bu gün Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilir. Bu gün ölkəmizdə həyata keçirilən effektiv iqtisadi islahatlar kursu hərtərəfli inkişafımızı təmin etmiş, vətəndaşların sosial rifah halı daha da yüksəlmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq tərzdə büruzə verir. Dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafeyini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezidentin son on beş il ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamları, qəbul etdiyi praqmatik qərarları, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin sürətli inkişafına nail olmuş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inikişaf mexanizminin daha da çevikliyinə və işləkliyinə nail olmuşdur.

Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində Cənab İlham Əliyevin 600 min yeni iş yerinin yaradılacağı barədə vədi də sistemli şəkildə, ardıcıl olaraq ilbəil əhalinin məşğuliyyətinin təmin edilməsinə hesablanmışdı. Aparılan düzgün siyasət nəticəsində, verilən vəd yerinə yetirildi. Son 15 ildə Azərbaycanda 1 milyon 900 min yeni iş yeri açılmışdır ki, bunun da 1 milyon 400 mini daimidir.

Milli Məclis tərəfindən qəbul edilən 2019-cu ilin dövlət büdcəsi də sosialyönümlüdür. Bu barədə, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli bildirib ki, 2019-cu ilin dövlət büdcəsinin ən üstün cəhətlərindən biri sosialyönümlü olmasıdır: "Gələn il dövlət büdcəsindən sosial məqsədlərə 8 milyard 265,8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da büdcənin 33,4 faizini təşkil edir. Növbəti ildə sosial tədbirlərə aid olan elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər siyasəti ilə bağlı xərclərə 6 milyard 369 milyon manat vəsait sərf ediləcək. Bu da cari illə müqayisədə 787 milyon manat, yəni 14,1 faiz çoxdur. Sosial tədbirlərin xərclərinin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi cari illə müqayisədə 1,5 faiz bənd artaraq 25,7 faizə, ümumi daxili məhsula nisbətdə isə, 0,5 faiz bənd artaraq 7,8 faizə çatacaq. Prezident İlham Əliyevin sərəncamları ilə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əməkhaqlarının artırılması, sosial müavinətlər, təqaüdlər və digər sosial yönümə aid edilən xərclər üzrə yaranmış əlavə maliyyə öhdəliklərinin təmin edilməsi üçün dövlət büdcəsindən 620 milyon manat, pensiya təminatı sahəsində əlavə sosial müdafiə tədbirləri üçün 110 milyon manat, 1425 məktəbəqədər təhsil müəssisəsində bir günlük ərzaq xərclərinin orta hesabla üç dəfə artırılması məqsədilə 83 milyon manat məbləğində vəsait ayrılıb".

### UĞURLU SOSİAL SİYASƏTİN BƏHRƏSİNİ HƏR BİR VƏTƏNDAŞ ÖZ YAŞAYIŞINDA HİSS EDİR

Ölkəmizdə reallaşan sosial siyasət nəticəsində, cəmiyyətin əmək qabiliyyətini itirmiş üzvləri üçün etibarlı sosial təminatlar sistemi yaradılıb, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi təmin olunub. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı müvafiq proqram hazırlanaraq həyata keçirilib. Proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun müddəaları öz əksini tapmışdır. Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə şərait yaratmışdır. 2018-ci il prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq, yenidən ölkə Prezidenti seçilən Cənab İlham Əliyevin imzaladığı ilk Fərmanı 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların (bundan sonra - hərbi qulluqçuların) vərəsələrinə 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsi barədə olmuşdur. Artıq 1600-ə yaxın ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrin hər birinə 11 min manat ödənilib. Azərbaycan Prezidenti İlham Əliyev dövlətin bu kateqoriyadan olan insanlara daim qayğı göstərdiyini vurğulayaraq deyib: "Dövlətimiz sosial siyasəti uğurla aparır. Görülmüş işlər bunun bariz nümunəsidir. Dövlət həmişə sizin yanınızdadır. Eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün, qaçqın soydaşlarımız var. Onlar da dövlət tərəfindən qayğı ilə əhatə olunurlar. Son illərdə 100-ə yaxın qəsəbə salınıb. Üç yüz minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır... Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu, bir daha bizim siyasətimizin niyyətini əks etdirir".

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir. Əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

***ZÜMRÜD BAYRAMOVA***

***Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün verilir***

TƏRS BAXIŞ

# Mübarizimizdən tutmuş, Zəhramıza qədər...

## Və ya "kosmopolitizm" üzərində ermənişivənlik missiyası

***Bir neçə gündür ki, sosial şəbəkələrdə və mediada özünü "psixoloq" adlandıran Nərmin Şahmarzadə adlı bir şəxsin bütün dünyanın həsəd apardığı şəhidimiz Mübariz İbrahimovla bağlı yazdığı bəlli statusu müzakirə obyektinə çevrilib. Söz yox ki, ictimai rəy qarşı tərəfin sərgilədiyi bu kimi "cürəti" pisləyir, lənətləyir və hətta daha ağır şəkildə ittiham-lar edirlər.***

Əlbəttə ki, bu anlaşılan məsələdir və münasibət bildirən insanlar içində şəhid övladları, həyat yoldaşları və s. var. Çünki Mübariz İbrahimovun yazdığı fövqəlqəhrəmanlıq salnaməsi bu gün bütün şəhidlərimizi özündə vahid şəkildə birləşdirib. Belə olan halda, Mübarizimizi "qatil", "cani" adlandırıb, bu sərsəmləməni "kosmopolitizmlə" əlaqələndirmək heç bir çərçivəyə sığmayan izafi iyrəncliкdir.

### Nə qədər ucuz, cılız və idbar təfəkkürə malik olmalısan ki...

Başqa tərəfdən, N.Şahmarzadənin "erməni mənə heç nə etməyib, nəyə görə onu özümə düşmən hesab etməliyəm" tipli baxışı, bu məsələni daha geniş trayektoriyaya çıxarır. Açıq-aşkar ultraeqolu olduğunu nümayiş etdirən bu xanımça, belə hesab edir ki, əgər erməni ona heç nə etməyibsə, deməк ki, yerdə qalanlarından fərqli olaraq, düşmən hesab edilə bilməz (?!). Nə qədər ucuz, cılız və idbar təfəkkürə malik olmalısan ki, daxilindəki eqoizm fəsadlarını aparıb "kosmopolitizmlə" əlaqələndirəsən...



Bu gün adıçəkilən bu şəxs, hələ də anlamır ki, Mübarizimizin timsalında şəhidlərimiz olmasaydı, bu gün həmin o "düşmən hesab etmirəm" dediyin qəddar erməni qaniçəni səni və bu gün sənə dəstək göstərənləri yatağındaca zorlayıb, başını-döşünü və s. kəsib, özünə yedirdərdi. Təəssüf ki, bunu anlamaq, qavramaq, dərk etmək düşüncəsində, gücündə və təfəkküründə deyillər. Nə N.Şahmarzadə, nə də onu dəstəkləyən bir sürü (!) məxluqlar.

### Özlərinə bu yolla - arsızlıqla, fahişəcəsinə təskinlik verməyə cəhd edirlər

Çünki təəssüfedici məqam da budur ki, bu gün N.Şahmarzadənin xalqda hiddət doğuran statusunu dəstəkləyənlər də var və onlar, əfsuslar olsun ki, azərbaycanlı qanı daşıyırlar. Düzdür, bu məsələdən eyforiyaya qapılıb beləlırini "qanıpozuq" və s. adlandıra bilərik, amma nə yazıq ki, səthi düşüncələrə malik bəlli adamlar adıçəkilən "psixoloqa" qahmar çıxırlar. Üstəlik, oni tənqid edənlərə qarşı da münasibətlər sərgiləyərək, özlərini "haqlı" saydıqlarını "sübuta" yetirmək istəyirlər, üstəlik, şəhidlərimizin ruhlarının müdafiəsinə qalxanları "vətənşivən" adlandırırlar. Halbuki reallığa qalanda, onların hər biri həyasızlıqlarından doğan şivənçiliklərini bu yolla isbatlamış olurlar - ermənişivənçilik missiyasını. Necə deyərlər, özlərinə bu yolla - arsızlıqla, fahişəcəsinə təskinlik verməyə cəhd edirlər. Amma yanılırlar! Yanılırlar və bu yanıldıqlarına görə, mütləq cavab verməli olacaqlar, özü də tezliklə...

Beləlеri balaca Zəhramızdan tutmuş, Mübarizimizə qədər, Şirin Mirzəyevimizdən tutmuş, Albert Aqarunovumuza qədər, Yanvar şəhidlərimizdən tutmuş, Xocalı şəhidlərimizə qədər - hər bir ifadə və təhqirlərinə görə "vətənşivən" adlandırdıqları AZƏRBAYCAN XALQI qarşısında cavab verməli olacaqlar. Artıq vaxt da yetişib və zaman da bu çağırışı edir!

**Rövşən NURƏDDİNOĞLU**



## Ermənilərə nökərçilik edən NANKORLAR

**RƏFİQƏ**

Doğrudan da, psixologiya elminə görə, şəxsiyyətin öz dəyərlər sistemi ilə birlikdə tam, hərtərəfli və harmonik inkişafı məsələsinə xüsusi diqqət yetirilir. Ancaq bu gün ermənilərə nökərçilik edən manqurtlar - Əli Kərimli, Rüstəm İbrahimbəyov, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Leyla Yunus, Xədicə İsmayıl və onların ardınca əlisi, isası, hacılısı və... bu kimi fərdlərə şəxsiyyət aid edilə bilməz. Çünki bu xisləti manqurtlar iblis xisləti, dəyərlərini erməniyə satan və satılanlardır. Onları da "Milli Şura" deyilən manqurtlar yuvasına, məhz elə bu oxşar psixoloji xüsusiyyətləri gətirib. Və layiq olmadıqları hakimiyyət arzusu ilə yaşaya-yaşaya həyasızlıq edən erməni maşasının qulbeçələri, Bakını ermənilərsiz təsəvvür etməyən anti-milli ünsür Rüstəm İbrahimbəyov kimi Gültəkin Hacıbəylinin də erməniçiliyi o qədər güclü imiş, hər keçirilən mitinqlərdə əlinə dəsmal alıb ermənilərin gününə ağlamaqdan da çəkinmir.

Bunun dəfələrlə şahidi olanların "Bu qədər də nankorluq olar? Qudurmaq buna deyirlər" sözlərini eşitsə də, qulaqardına vurub bu erməni qulbeçəsi. Əslində, burada təəccüblü bir şey yoxdur. Çünki öz ambisiyalarının və şəxsi maraqlarının girovuna çevrilmiş, öz mövqeyi ilə anti-Azərbaycan dairələrin dağıdıcı fikir və planlarını dəstəkləyən bir adamdan başqa mövqe gözləmək düzgün deyil. Daha dəqiq desək, balayanların, avanesovların, yeni ermənilərin yaxın dostunun Azərbaycan xalqına münasibəti yalnız bu cür ola bilər. Çünki Gültəkin Hacıbəylinin niyyətinin gerçəkliyi budur.

İstər Rüstəmi, istər Gültəkini olsun və ya bunlar kimi iblis xarakterli bu parazitlər tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən-dövlətindən üz çevirən bu manqurtların hərəkətlərinin bir adı var - NANKORLUQ!

# "Nar" tələbələr üçün yeni iş imkanı təklif edir



"Nar" tələbələrin öz ixtisasları üzrə uğurlu karyera qurmalarına kömək etmək məqsədilə gənclərə dəstək olub. Mobil operator Azərbaycan Texniki Universitetində (AzTU) təşkil olunan I Karyera Sərgisində iştirak edib. Gənclərin karyera qurmalarına dəstək məqsədilə keçirilən sərgidə "Nar" biznesin təhlili üzrə mütəxəssis, media əlaqələri üzrə mütəxəssis, eyni zamanda, məhsulların inkişaf etdirilməsi üzrə aparıcı mütəxəssis və korporativ satış üzrə mütəxəssis vəzifələrinə sənəd qəbulu təşkil edib. Dekabrın 14-ü keçirilən sərgidə "Azerfon" MMC ("Nar" ticarət nişanı) ilə yanaşı, 70-dən çox şirkət iştirak edib. 1500-dək tələbə və məzunun iştirak etdiyi sərgidə "Nar" stendinə maraq böyük olub.

Sərgi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə "Karyerada ilk addım" şüarı altında keçirilib. Sərginin keçirilməsinin əsas məqsədi gənclərin məşğulluğunun artırılması, iş təcrübəsi olmayan gənclər üçün karyera fürsəti yaratmaq, məşğulluq bacarıqlarını inkişaf etdirməklə onların iş imkanlarını genişləndirməkdir.

Qeyd edək ki, gənclərə dəstək "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. "Nar" AzTU ilə əməkdaşlıq çərçivəsində tələbələr üçün "Mobil rabitənin əsasları" mövzusunda təlimlər keçirib. 2016-cı ildə Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsinə əsasən universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada tələbələr mobil rabitə üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanırlar.

## "Nar" mətbuat nümayəndələrini bir araya topladı

"Nar" qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə mətbuat nümayəndələrini bir araya toplayıb və onlar üçün növbəti dəfə əyləncəli bilik yarışması təşkil edib. Tədbirdə 55-dən çox media orqanını təmsil edən 100-ə qədər jurnalist iştirak edib. Yarışmada ümumi biliklərlə yanaşı, milli və dünya mədəniyyətinə, tarixinə aid müxtəlif suallar təqdim olunub.



"Azerfon" MMC-nin İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov media nümayəndələrini qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edib və bildirib ki, "Nar" mediaya yönəlmiş layihələrini növbəti il də reallaşdıracaq.

2 saatdan çox davam edən bilik yarışmasında 18 komanda iştirak edib. "Sophianın Azərbaycandakı dostları" komandası 1-ci, "Yeni Müsavat" komandası 2-ci, "Komandos" komandası isə 3-cü yeri tutublar. Qalib komandalar "Nar"-dan xüsusi hədiyyələr qazanıblar. Bundan başqa, tədbir zamanı xüsusi əyləncəli müsabiqələr keçirilib və qaliblərə hədiyyələr təqdim edilib.

# Bakcell karyera qurmaqda tələbələrə dəstək göstərir

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Azərbaycan Texniki Universitetinin tələbələri üçün təşkil olunmuş karyera sərgisində iştirak edib. Azərbaycan Texniki Universitetinin Karyera Mərkəzi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilmiş karyera sərgisində 70-ə yaxın şirkət və müəssisə iştirak edib. Sərgi tələbələrə məşğulluq, iş, təcrübə imkanları təklif etməklə yanaşı, müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradıb.



Tədbirdə iştirak edən tələbələrə "Bakcell"in satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Şirkət nümayəndələri işaxtaranlar və potensial namizədlərlə müsahibələr keçirib.

Özünün genişmiqyaslı korporativ sosial fəaliyyətinə görə seçilən Bakcell şirkəti, Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqət mərkəzində saxlayır və gənc mütəxəssislərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verir. Təkcə cari il ərzində şirkət bir sıra iri karyera sərgisində iştirakla yanaşı özünün ənənəvi yay təcrübə proqramını elan edib və gənclərin karyera və təhsilinə dəstək məqsədini daşıyan digər layihələri uğurla həyata keçirib. Bakcell şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.

# Azərbaycanda qadın məsələsinin həlli yolları

***"Q**adın məsələsi"nin həllinin bir tərəfi qadınların kişilərlə bərabərliyinin hüquqi təminatı məsələsidir. Fikrimizcə, heç də ondan az əhəmiyyətli olmayan başqa bir tərəf cinslərin, faktiki olaraq, sosial-iqtisadi və mədəni bərabərliyini təmin edən şəraitin yaradılmasıdır. Məsələnin bu tərəfinin cinslərin faktiki bərabərliyini əldə etmək üçün həlledici rolu vardır. Bu məsələlərin həlli üçün hazırlanmalı plana, birincisi, qadınları ictimai istehsala, eyni zamanda, onların ixtisasını artırmaq şərti ilə maksimum geniş miqyasda cəlb etmək, ikincisi, qadınların məişətini yaxşılaşdırmaq, onlara əmək cəbhəsindəki və ailədəki rollarını birləşdirmək üçün şərait yaratmaq daxil edilməlidir.*

Həyat tərzinin inkişafının, indiki şərait baxımından, onun dəyişdirilməsi və sürətlə təkmilləşməsi problemlərinin diqqət tələb etdiyi bir vaxtda, qadınların mövcud vəziyyətini kompleks təhlil etmək zərurəti yetişmişdir. Bununla bağlı dini problemlərinə, onun qadınların mənəvi həyatında roluna xüsusi diqqət yetirmək lazımdır. Hələ bu yaxın vaxtlaradək bizim ideoloqlarımız dinin sosial köklərini kəsdiklərindən, sosializmin, kommunist tərbiyəsinin və onun tərkib hissələrindən biri olan ateist tərbiyəsinin gözəl nailiyyətlərindən ardıcıl raportlar verirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin bərpasından sonra hər şey köklü surətdə dəyişdi.

Əsərdə qadınların dindarlığının ümumi səviyyəsinin təsvirini verməklə kifayətlənməyi mümkün sayırıq. Beləliklə, son illərdə aparılmış konkret sosioloji araşdırmaların nəticəsində, aydın olmuşdur ki, sosial tərəqqi, iqtisadiyyatın və mədəniyyətin yüksəlişi müasir mömin insanın mənəvi simasının dəyişməsinə təkan verərək, onu öz ardınca çəkib aparır. Belə ki, keçmişdə müsəlman qadın cahil, geridə qalmış, hüquqsuz, sinifli cəmiyyət qanunlarının və yoxsulluğun pəncəsi altında əzilən bir qadın mənəviyyatında dərin izlər buraxaraq, onu zənginləşdirən bayramlardır.

Məhsul bayramlarına misal olaraq "Mehriqan" adlı bayramı da göstərmək olar. Mehriqan mehr ayının 16-dan 30-dək (indi işlətdiyimiz miladi təqvimінin oktyabr ayının 8-dən 22-dək) keçirilirmiş. Başlanğıcda bu bayram sürüyə qoç qatılması ilə bağlı keçirilmişdir, sonralar taxıl biçini bayramına çevrilmiş, uzun müddət böyük ruh yüksəkliyi ilə keçirilmişdir. Bu bayram bugünkü məhsul bayramlarının ulusu (sələfi) hesab oluna bilər.

Azərbaycanda məhsul bayramı köçkün dağdan (yaylaqdan) arana qayıtması zamanı keçirilir. Bu bayramın ən maraqlı komponentlərindən (tərkib hissələrindən) biri əllərində xonça olan qızların rəqs etməsi olmuş, bu komponent indi də dəbdən düşməmişdir. Torpaqlarımızın erməni təcavüzkarlarından azad edilməsi uğrunda müharibə bu bayrama yeni çalar vermişdir: indi mer-meyvə ilə, növbənöv Şərq şirniyyatı ilə dolu olan həmin xonçalar cəbhə bölgələrinə - yurdumuzu hiyləgər düşməndən qoruyan igid döyüşçülərimizə göndərilir.

Azərbaycanın bəzi rayonlarında "Məhsul bayramı" ilə birlikdə "Mahnı bayramı", xalq sənətkarlarının əl işləri sərgiləri, müharibə veteranları ilə görüşlər də keçirilir ki, bu məhsul bayramlarının təsir gücünü daha da artırır.

Azərbaycan xalqı doğrudan-doğruya poeziyaya sitayiş edən xalqdır. Bu xalq müdrik və gözəl sözə çox həssaslıqla yanaşır. Ölkənin bir çox kəndlərində və rayonlarında aşıqların müsabiqələri (yarışmaları), folklor (xalq yaradıcılığı) festivalları və poeziya günləri keçirilir. Bu tədbirlərdə söz sənətimizin böyük sənətkarları, gənc yaradıcıları iştirak edərək ədəbiyyatımızın poeziya kəhkəşanının parıltısı ilə nəsillərin könlünə maarif, vətənpərvərlik ziyası saçırlar.

Azərbaycan sakinləri hazırda "Söz bayramı" adlı musiqi bayramı keçirirlər. Bu bayramda əhali elliklə gəzintiyə çıxır, musiqiçilər, müğənnilər də onlar üçün çalıb-oxuyaraq, bu gəzintiyə şən əhval-ruhiyyə bəxş edirlər.

Azərbaycan xalqının çox qədim, bütün xalqın ehtiramla qeyd etdiyi bayramı Novruz bayramıdır. Sovet imperiyasının tərkibində olduğumuz zaman bu bayramı sıxışdırıb aradan çıxarmış kommunist rejiminin ideoloqları onu köhnəlmiş, zamanın tələbindən geri qalmış, sosialist həyat tərzinə yabançı müsəlman bayramı damğası vurmaqla xalqın gözündən salmağa çalışırdılar. Onlar bu iddialarını Novruz bayramı ayinlərindən bəzilərində islam elementlərinin müşahidə olunması ilə əsaslandırırdılar. Əslində isə, bu bayramda dərin xalq nikbinliyi məzmunu var. Tarixən də, Novruz bayramı islam tarixindən əsrlərlə qabaq meydana gəlmiş bir bayramıdır. Buna görə də, Novruzun zorla qadağan olunması, keçirilməsinə yuxarıdan əmrlə "yasaq" qoyulması xalqın milli hisslərinə toxunur, çox vaxt mənfi nəticələr doğururdu. Bu mövqeyin nə qədər yanlış olduğunu deməyə ehtiyac yoxdur. Bizim üçün ən əhəmiyyətlisi odur ki, artıq xalqımız hər ilin 21-22 mart tarixlərini sözün həqiqi mənasında, yeni ilin başlandığını deməyə əsas verən təbiətin dirçəliş, gecə ilə gündüzün yaz bərabərləşməsini Novruz bayramı kimi elliklə bayram edir. Bu sevimli bayramın həqiqi mənası və məzmunu, eləcə də, forması yenidən özünə qaytarılmış, indi o, "Bahar bayramı" kimi, yeni ilin başlanğıcı kimi qeyd edilir. Üstəlik, qədim xalq ənənələri yeni və müasir adətlərlə zənginləşmişdir.

Yuxarıda göstərilən bütün bayramlar və onlarla bağlı mərasimlər insana xoşbəxtlik hissi aşılayır, onu yaxşı işlər görməyə ruhlandırır, yüksək mənəvi keyfiyyətlər əldə etmək üçün həvəsləndirir. Onlar xalqın mənəvi tələblərinə cavab verir, insanı vətənpərvərlik (yurdsevərlik), əməyə, öz xalqına və başqa xalqlara məhəbbət ruhunda tərbiyə edir və ailənin dayaqlarını möhkəmlədir.

Dövlətlə məscid (din) arasındakı münasibətlərin dəyişilməsi çox şeyi dəyişdirdi. Bu qadın mənəviyyatında da mühüm rol oynadığı üçün bu gün biz qadınların mənəvi həyatını səciyyələndirərkən dini adət-ənənələrin rolunu qeyd etmədən susub keçə bilmərik. Axı hər zaman dünyəvi adət-ənənə ilə yanaşı, dini adətənənə də mövcud olmuş və şəxsiyyətin formalaşmasında, cəmiyyətin təşkilində onların hər biri insanların köməyinə gəlmişdir. Burada F.Engelsin belə bir sözünü misal gətirmək yerinə düşərdi ki, Şərqin qədim dinlərində "başlıca cəhət mərasimçilik olmuşdur" ki, onu islam qoruyubsaxlamışdır. Özü də o, qadağanlara, təqiblərə, ictimai töhmətə (insanların tənə-töhmətinə), ifşa olunmaya və b. baxmayaraq, qorunub-saxlanmışdır (həm də yenişləşmişdir). Dini mərasimlərdən məqsəd odur ki, möminlərin şüurunda dini təsəvvürlər möhkəmlənsin, Ucalardan Uca Allahın hər şeyi bacardığına (hər şeyə qadir olduğuna) inam güclənsin, din xadimlərinin insanlara təlqin etdikləri ideyaların qavranması asanlaşsın, insanların əxlaqi və mənəvi keyfiyyətləri yüksəlsin. Özü də dini mərasimlər təntənəli səciyyədə olur, yüzilliklər boyu formalaşmış müxtəlif ayin və adətlərlə müşayiət olunan güclü emosional (həyəcan doğuran) təsir göstərir. İndiki nəsillər isə tarixin dərinliklərindən gəlib özlərinə çatmış bu bayram və adətlərin ətəyini kəsib gödəldərək onları vahid bir ad - dini mərasimlər adı altında birləşdirmişlər. Ancaq yuxarıda qeyd olunduğu kimi, rəsmi qadağanlara baxmayaraq, onlar müasir çalar alaraq xalqın iradəsi, istəyi (arzusu) və tarixi varislik sayəsində mövcud olmaqda davam edir.

Azərbaycan əhalisinin mütləq əksəriyyətinin islam dininə inandığını nəzərə alaraq, xristian, yəhudi, Budda dinləri mərasimlərinin əhəmiyyətini danmasaq da, biz bu araşdırmada onların Azərbaycan qadınlarının mənəvi həyatına təsirindən danışmayacaq, yalnız islam mərasimləri timsalında dini mərasimlərin bütün cəmiyyətin, eləcə də, qadınların mənəvi həyatında necə böyük rolu olduğunu göstərməyə çalışacağıq.

Müsəlman mərasim və bayramlarının dərindən araşdırılması mömin müsəlmanların psixologiyasını öyrənməkdə açar rolunu oynayır. Həm də islam mərasimləri yalnız möminlərin məişətində və şüurunda kök salmaqla qalmamış, onların kökləri cəmiyyətin başqa üzvlərinin də duyğularının dərinliklərinə işləmişdir.

İslamın cəmiyyətdə özünə yer tutması ilə, bunun təsiri altında xalqın mənəvi mədəniyyətinin tərkib hissələrindən biri olan adət və ənənələr də dini şəkil almağa başladı. İslam dini keçmişin adət-ənənələrinə böyük təsir göstərdi. Bu dinin cəmiyyətə gətirdiyi oruc, namaz, qurban bayramı, nikah, dini dəfn mərasimi və başqa adətlər, eləcə də, Quranın və şəriətin insanların hərəkətlərinə, qarşılıqlı münasibətlərinə aid qaydaları və başqa dini ideyalar, təsəvvürlər uzun əsrlər boyu nəsildən-nəslə keçərək, insanların məişətində və şüurunda möhkəmlənir və getgedə adət-ənənə şəkli alırdılar.

Bu gün müsəlman dini mərasimlərini təhlil edərkən din xadimlərinin dini mərasimləri, onların bütün çətinliklərinə və məsrəflərinə baxmayaraq, indiki həyata uyğunlaşdırmaq üçün istifadə etdikləri böyük dəyişiklikləri, yenilikləri, sadələşdirmələri nəzərə almaq zəruridir.

İslamda yenilikçilik (modern) meyillərini hələ XIX əsrin 20-ci illərində sezmək mümkün idi. Bu, o zaman idi ki, din şiddətlə sıxışdırılır, onun cəmiyyətin mənəvi həyatından çıxarılmasına cəhd göstərilirdi.

Məsələn, islam dininin əsas dayaqlarından biri olan, gündə beş vaxt qılınmalı namaz elə bir ayindir ki, onun öz vaxtı və öz dəyişməz qaydaları var. Lakin möminlər göstərilən təzyiqlər nəticəsində çox vaxt namazı vaxtında qıla bilmədiklərindən, onu əvvəlcə şəriətin icazə verdiyi birləşdirmə qaydaları ilə ixtisarla qılmağa başladılar. Şəriətə görə yalnız çıxılmaz hallarda yol verilən bu qayda get-gedə üstünlük təşkil etdi. Hətta namazı yeni öyrənənlər üçün qanunauyğun görünməyə başladı. Din xadimlərinin, kütləvi olaraq cəzalandırılması və sürgün edilməsi də bir yandan namazın şəriətə tam uyğun qaydalarının öyrənilməsi mənbəyini yox etdi. Dini ədəbiyyatın nəşrindən isə, söz ola bilməzdi. Beləliklə, həm bu səbəbdən, həm də dinin qaydalarına açıq əməl edən dindarlara partiya və dövlət strukturlarında yer verilmədiyindən, artıq XX əsrin 50-60-cı illərində hər kənddə, şəhərdə namaz qılanları barmaqla saymaq olardı. Sözsüz ki, ateist təbliğatı da öz işini görmüş, möminlərin sayı da kəskin dərəcədə azalmışdı. 90-cı illərin başlanğıcında ölkəmizin müstəqil dövlətə çevrildiyi vaxt isə, bu say, demək olar ki, yox dərəcəsinə enib, dəfn mərasimini idarə etməklə, pul qazanan mollalar (onların arasında da namaz qılmayanları vardı!) və bir neçə ağsaqqal-ağbirçəklə məhdudlaşırdı. Beləliklə, islamda belə bir yenilik özünə yer etmişdi ki, guya namazı mollalar və ahıllar qılmalıdır. Bəzi hallarda vaxtın çatmadığını, işdən baş açmadığını bəhanə edərək, sübh namazı qılmaqla kifayətlənən dindarlara da rast gəlmək olurdu. Sözsüz ki, belə əsassız "yenilik"lərin ilahiyyat termini ilə adlandırsaq - bidətlərin ömrü çox ola bilməzdi. İndi ölkəmiz "kütləvi dindarlar ölkəsi" (qabaqdakı "kütləvi ateistlər ölkəsi" ifadəsini yada salın) olmasa da, hər bir insan, demək olar ki, yeniyetmə yaşına yaxınlaşan bütün uşaqlar belə islam dininin əsas ibadət forması olan namazın beş vaxt qılınmalı olduğunu və bunu qılıb-qılmamaq məsələsini sərbəst müəyyənləşdirə bilər. Çünki islamın "Dində məcburiyyət yoxdur" demokratik prinsipini Azərbaycan Respublikasının Konstitusiyasının "Vicdan azadlığı" adlı 48-ci maddəsi belə təsdiq və təmin edir: "1. Hər kəsin vicdan azadlığı vardır. II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və ya yaymaq hüququ vardır".

Məscidlərdə qadınların namaz qılmaları üçün xüsusi yer olur. Bu məsələ elə ilk məscidlərin tikilməyə başlanmasından, hələ islam Peyğəmbərinin sağlığında həll olunmuşdur. Bu xüsusi yer ya pərdədən arakəsmə ilə ayrılmış sahə, ya bu məqsədlə ayrıca tikilmiş otaq ola bilər. Müasir inşaat və arxitektura imkanları, hətta hicabın bu növünü ayrıca mərtəbə şəklində həll etməyə imkan verir və bəzi məscidlərin tikintisində bu nəzərə alınmışdır.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## Qan qrupu və xəstəliklər




Qan insan üçün ən vacib elementdir və onsuz heç bir bədən üzvü fəaliyyət göstərə bilməz. Qanın orqanizmdə gedib çıxmadığı bir nöqtə də yoxdur. Mənfi və müsbət olmaqla dörd qrupa bölünən hər qan qrupunun özünəməxsus xüsusiyyəti var.

Respublika Kliniki Uşaq Xəstəxanasının həkim-hematoloqu, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadənin dediyinə görə, insanın yoluxduğu xəstəliklə qan qrupu arasında birbaşa bağlılıq var: “Birinci qan qrupu olanlarda əsasən allergik reaksiyalar, infeksion, dəri, ginekoloji və qalxanvarı vəzin problemləri daha kəskin şəkildə özünü büruzə verir. İkinci qan qrupunda dəri, tənəffüs sistemi və şəkərli diabet, üçüncü qan qrupunda dayaq-hərəkət sistemi, dördüncü qan qrupunun daşıyıcıları arasında isə həm tənəffüs sistemi, həm də infeksion xəstəliklərə daha çox rast gəlinir”.

Həkim-hematoloq hər bir qan qrupunun daşıyıcıları barəsində məsləhət verərək deyib: “Birinci və ikinci qan qrupuna məxsus olanlar qidalanmaya xüsusi fikir verməlidirlər. İkinci qan qrupunun daşıyıcıları endokrinoloji xəstəliklərə səbəb olan həyat tərzi və qidalardan uzaq olmalıdırlar. Üçüncü qan qrupunun daşıyıcıları yaz və payız mövsümündə özlərinə diqqət yetirməlidirlər. Belə ki, həmin fəsillərdə xəstəliyə yoluxma ehtimalı daha yüksək olur. Dördüncü qan qrupuna malik olanlar qidalanma rejiminə düzgün riayət etməlidirlər”.

## Yurgen Klopp: “Bavariya” ilə oyunlar çətin keçəcək



“Liverpul”un baş məşqçisi Yurgen Klopp Çempionlar Liqasının 1/8 final mərhələsinin püşkatmasının nəticəsini dəyərləndirib. Klubun rəsmi saytına danışan alman mütəxəssis bu mərhələdə mersisaydlılara rəqib olan “Bavariya” ilə oyunların çətin keçəcəyini bildirib: “Rəqibimiz bilinən kimi oyunların çətin keçəcəyi məlum oldu. “Bavariya” top-klubdur. Almaniyaya gedəcəyim üçün şadam. Oyuna hazırlaşmaq üçün vaxtımız var. Ümid edirəm ki, bütün futbolçularımız hazır olacaq. Həm çətin, həm də maraqlı görüşün şahidi olacağıq. Hazırkı “Bavariya” mənim daha əvvəl qarşılaşdığım komandadan fərqlənir. Əvvəlki deyil. Bundesliqa haqda çox şey bilirik. Amma bu, bizim üçün ciddi üstünlük deyil”.

Qeyd edək ki, 1/8 final mərhələsinin ilk oyunları 12-13 və 19-20 fevralda, cavab qarşılaşmaları isə 5-6 və 12-13 martda keçiriləcək.

## Sinoptiklərdən xəbərdarlıq: Yollar buz bağlayacaq

Sinoptiklər ölkə ərazisində gözlənilən qeyri-sabit və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında dekabrın 18-dən 21-i gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Dekabrın 19-da gündüz yağışda fasilə olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 18-19-da Abşeron yarımadasında rütubətli hava şəraiti əksər meteohəssas insanlarda narahatlıq hissi yarada bilər. Dekabrın 19-u axşam Azərbaycanın bəzi şərq rayonlarında, 20-si axşam, 21-də isə ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Yağıntının bəzi yerlərdə intensiv olacağı, çaylarda sululuğun artacağı, Lənkəran-Astara zonasının bəzi çaylarında isə qısamüddətli daşqın olacağı bildirilir. Dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimal edilir.

## ELAN

ADPU-nun IV kurs tələbəsi Əhmədova Aynisə Bəxtiyar qızının adına verilmiş Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Milli Gimnastika Arenası cari ilin sonuncu gimnastika yarışına ev sahibliyi edib



Milli Gimnastika Arenasının köməkçi zalında 2018-ci ilin sonuncu gimnastika yarışı keçirilib. AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verir ki, batut və aerobika gimnastikası üzrə Azərbaycan birinciliyi və paytaxt çempionatında Bakı Gimnastika Məktəbi, Ocaq Sport Klubu, həmçinin Sumqayıt və Göyçay təmsilçiləri iştirak ediblər.

Batut üzrə açıq elan olunan turnirdə yerli idmançılarla yanaşı, Gürcüstan gimnastları da çıxış edərək mükafatçılar sırasında yer alıblar. Azərbaycan Gimnastika Federasiyası yarışlar mövsümünü bağlı elan etsə də, dekabrın 23-də arena yenidən gimnastika ilə coşacaq. Xatırladaq ki, bu tarixdə gimnastika növləri üzrə milli komandaların idmançı və məşqçi heyəti “Ağbəniz və 7 cırtdan” adlı yeni il şousu ilə tamaşaçıların görüşünə gələcək.

## Karateçilərimiz ilin sonuncu liqa turnirində üç medal qazanıblar



Karate üzrə yeniyetmə və gənclərdən ibarət milli komandamız Venesiyada keçirilən ilin sonuncu liqa turnirində üç medal qazanıb. Azərbaycan Milli Karate Federasiyasının məlumatında deyilir ki, 14-15 yaşlı yeniyetmələrin yarışında Hüseyn Məmmədli (57 kq) və Tale Yaqubov (63 kq) qızıl medal qazanıblar. Turnirdə 16-17 yaşlı idmançıların mübarizəsində isə Əminağa Quliyev (61 kq) gümüş medala sahib olub.

Qeyd edək ki, 16-17 yaşlı gənclərdən ibarət komandamızın liderlərindən olan Polina Qurenko (53 kq) məşqlərdə zədələndiyi üçün yarışa qatıla bilməyib. Dünya Karate Federasiyasının (WKF) bu ildən etibarən təşkil etməyə başladığı gənclər liqası beynəlxalq turnirinin yekun yarışında 67 ölkədən 2600-dən çox karateçi mübarizə aparıb. Bu yarış baş məşqçi Anar Allahverdiyevin rəhbərlik etdiyi yeniyetmə və gənclərdən ibarət komandamız üçün fevralda Danimarkada keçiriləcək Avropa çempionatına hazırlıq xarakteri daşıyıb.

## Messi “het-trik”lə cari mövsümdə 14-cü qolunu vurub



İspaniya La Liqasının 16-cı turunun oyunları keçirilib. AZƏRTAC xəbər verir ki, son çempion “Barselona” səfərdə “Levante” klubunun qonağı olub. Meydan sahiblərinin cari mövsüm yaxşı çıxışına baxmayaraq, oyunun favoriti sayılan “Barselona”ya beş cavabsız qolla məğlub olublar.

Kataloniyalıların heyətində əsas qol silahı sayılan Lionel Messi “het-trik”lə, eləcə də Luis Suares və Jerard Pike fərqləniblər. Bu argentinalı ulduzun cari mövsümdə vurduğu 14-cü qolu olub. “Barselona”nın La Liqada əsas izləyicisi “Real Madrid” klubu doğma meydanda “Rayo Valyekano”nu sınağa çəkib. Madrid klubu doğma meydanda minimal hesabla üstün olub (1:0). Paytaxtın digər təmsilçisi “Atletiko” isə səfərdə “Valyadolid” üzərində qələbəyə sevinib (2:3).

## Avropanın ən yaxşı gənc futbolçusu müəyyənləşdi



“Tuttosport”un Avropada 21 yaşadək ən yaxşı futbolçu üçün təsis etdiyi “2018 Golden boy” mükafatının qalibi bəlli olub. Qol.az xəbər verir ki, “Ayaks”ın 19 yaşlı müdafiəçisi Mateys de Liqt Avropanın ən yaxşı gənc futbolçusu seçilib. Hollandiya millisinin üzvü ilə yanaşı “2018 Golden boy” mükafatına “Liverpul”dan Trent Aleksandar-Arnold, “Real”dan Vinisius Junior, “Milan”dan Patrik Kutrone və “Roma”dan Castin Klyuvert namizəd idi. Qeyd edək ki, 2017-ci ildə mükafata PSJ və Fransa millisinin üzvü Killian Mbappe layiq görülmüşdü.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500